QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 089 (7257)

23 may 2025-ci il.
Qiyməti 60 qəpik

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi

3

Türk dövlətləri: qlobal miqyasda güc mərkəzi

2

Prezident İlham Əliyev: "Azərbaycan ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur"

Ermənilər çətir axtarışında

Müxalifət İrəvanı "İttifaq Dövlətinə" üzv olmağa çağırır

13

İstedadlı müəllimlər tədrisdən uzaqlaşır - SƏBƏB?

16

Elektromobil erası başlamamış bitdi, yoxsa...?

15

Qurban bayramında ardıcıl 4 gün iş olmayacaq

16

Kaş insanlıq da dəb olaydı

11

Qadın, həyat yoldaşı, ana olmağa hazırsanmı?..



12

Türk dövlətləri: qlobal miqyasda güc mərkəzi

Prezident İlham Əliyev: "Azərbaycan ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur"

Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçıları Şurasının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Macarıstana səfəri Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birinin Türk dünyasının gücləndirilməsi, türk dövlətləri ilə əlaqələrin daha da möhkəmləndirilməsinin daha bir göstəricisidir. Türk dünyasını böyük ailə kimi dəyərləndirən dövlətimizin başçısı İlham Əliyev daim bu çağırışı edir ki, Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da Türk dünyasının birliyi amallarına sadiq qalacaq. Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir. Bu il isə ikinci qeyri-rəsmi Zirvə görüşü Macarıstanda təşkil edilmişdir.

Artıq bu)örüş ənənəyə çevrilib. Macarıstanın TDT sammitinə müşahidəçi dövlət kimi ev sahibliyi etməsi bu ölkənin tarixi kökləri ilə sıx bağlı olduğunu göstərən amillərdəndir.

”Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsinin təşəbbüskarı Azərbaycan olmuşdur və bu estafeti bizdən Macarıstan alıb, biz bunu alqışlayırıq. Bu, bir daha onu göstərir ki, Macarıstan öz tarixi köklərinə çox bağlıdır, bu, bizi də çox sevindirir”, - deyə Azərbaycan Prezidenti bildirib.

Tarixdə ilk dəfədir ki, Türk Dövlətləri Təşkilatının Zirvə toplantısı Macarıstanda keçirilir və dünyada təhlükələrin və çağırışların artması fonunda dost ölkələr bir araya gələrək beynəlxalq münasibətləri müzakirə etmiş oldular. Müşahidəçi ölkə Macarıstan tərəfindən ilk dəfə keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşü xüsusi olaraq vurğulanır.

”TÜRK DÜNYASI XARTİYASI”

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamənin imzalanması tarixi hadisəyə çevrildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev tərəfindən imzalanmış Bəyannamə 71 bənddən ibarətdir.

Bəyannamədə qeyd olunur ki, Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər ”Türk Dünyası Xartiyası”nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar.

Tərəflər Türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək, bütün sahələrdə həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmindədirlər. Üzv dövlətlərin birliyini və həmrəyliyini pozmağa yönəlmiş hər hansı hərəkət və təhdidlərin qarşısının alınmasının vacibliyi diqqətə çatdırılır və təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləmiş olublar.

Görüşdə Bəyannamə imzalanarkən dövlət başçılarının bir daha Naxçıvan Sazişinin prinsiplərinə sadiqliklərini ifadə ediblər. Son dörd il ərzində Qırğızıstanın TDT üzv dövlətləri ilə ticarət dövriyyəsinin demək olar iki dəfə artması, Qazaxıstanın Naxçıvan Sazişinə dəyişikliklərin edilməsi haqqında Protokolu ratifikasiya etməsi, təşkilatda daimi nümayəndəsini təyin etməsi və yaxın zamanda daimi nümayəndəliyin açılmasının nəzərdə tutulması və s. böyük əhəmiyyət daşıyır.

”BU İL TÜRK İNVESTİSİYA FONDUNUN RƏSMİ OLARAQ FƏALİYYƏTƏ BAŞLAMASI NƏZƏRDƏ TUTULUR”

Qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviqində qabaqcıl təşəbbüs kimi ”Bakı Prosesi”nin uğuru yüksək qiymətləndirilir və Azərbaycan bu istiqamətdə davamlı liderliyinə görə təqdir edilir. Sənəddə 2026-cı ildə keçiriləcək VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilinə dəstək ifadə olunur. Türk Dövlətləri Təşkilatı Katibliyinin büdcəsinin əhəmiyyətli dərəcədə artırılması təklifi dəstəklənir, TDT-nin ilk birgə maliyyə institutu kimi yaradılmış Türk İnvestisiya Fondunun layihə fəaliyyətinə başlanmasının vacibliyi vurğulanır. Xatırladaq ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatına maliyyə dəstəyi verməsi təşkilatın mövcud büdcəsinin qarşıya qoyulan hədəflərə çatmasında mühüm amillərdəndir. Belə ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi göstərməsi təşkilatın potensialını daha da gücləndirilməsində əhəmiyyətli faktordur.

”AZƏRBAYCAN COP29-DA QLOBAL CƏNUBLA QLOBAL ŞİMAL ARASINDA KÖRPÜ QURMAĞA MÜVƏFFƏQ OLDU”

Bəyannamədə Türk Yaşıl Baxış prinsipləri rəhbər tutularaq, iqlim dəyişikliyinə və ətraf mühitin mühafizəsində davamlı yaşıl inkişafa sadiqlik bir daha təsdiqlənir, yaşıl enerji avadanlığının və texnologiyalarının inkişafının, iqlimədavamlı infrastrukturun, enerji səmərəliliyinin və tullantıların səmərəli idarə olunmasının təşviqinin vacibliyi qeyd edilir. Bildiyimiz kimi, Azərbaycanın 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasına uğurlu ev sahibliyi, o cümlədən onun əsas nəticəsi olan Bakı İqlim Birliyi Paktı, eləcə də COP29 Sədrliyi çərçivəsində həyata keçirdiyi təşəbbüslər təqdir olunur.

Region boyu yaşıl enerji dəhlizlərinin inkişafının vacibliyi qeyd edilir, yaşıl enerjinin inkişafı və ötürülməsi üzrə layihələrin həyata keçirilməsində irəliləyiş, Təşkilatın üzv dövlətlərinin hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Sazişin qüvvəyə minməsi alqışlanır. Bildiyimiz kimi, ötən il təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycanda COP29 kimi mötəbər konfrans keçirildi. Hazırlıq üçün cəmi 11 ay vaxt olmasına baxmayaraq, Azərbaycan COP29-u yüksək səviyyədə təşkil etməyə nail oldu.

Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğuru kimi, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi tarixi uğur kimi yadda qaldı. Beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan COP29-un təşkili baxımından üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi. ”Azərbaycan COP29-da Qlobal Cənubla Qlobal Şimal arasında körpü qurmağa müvəffəq oldu. Bakıda qlobal iqlim gündəliyi ilə bağlı ciddi qərarlar qəbul edildi. Əsas nailiyyət inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılmasını nəzərdə tutan yeni maliyyə hədəfi barədə razılaşmadır. Bundan başqa, 10 il ərzində razılıq əldə edilməsi mümkün olmayan karbon bazarlarının tənzimlənməsi barədə konsensusa nail olundu, İtki və Zərər Fondu işlək vəziyyətə gətirildi.

COP29 böyük uğurlara imza atmış və tarixə ”Bakı sıçrayışı” kimi daxil olmuşdur. COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi imzalanmışdır. Bu saziş ölkələrimizdə istehsal edilən yaşıl enerjinin Xəzər-Qara dəniz marşrutu ilə dünya bazarlarına ixracı üçün geniş imkanlar yaradır”, - deyə Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxışı zamanı bildirib.

COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu, Azərbaycanın lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilmişdi. Bu isə dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər idi. Bütün dünya ölkələrinin dövlət rəhbərləri bir araya gəlib iqlim dəyişikliyi ilə bağlı məsələlərin məhz Bakıda həll yolları axtardılar. Bu ölkəmiz üçün, onun enerjisi, geosiyasəti üçün son dərəcə vacib bir toplantı kimi əhəmiyyət daşıyır. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasından baxıldı. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı prioritet sahə kimi qəbul etdiyini bütün dünyaya sübut etmiş oldu. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə təqdiminə böyük təkandır.

Sözügedən Sənəddə silahlı münaqişələr zamanı mədəni irsin qorunmasının vacibliyi vurğulanır, münaqişədən sonra mədəni irsin bərpasında Türk dövlətlərinin səyləri təqdir edilir.

Mədəniyyətlərarası körpü və ümumbəşəri dəyərlərin rəmzi kimi çıxış edən Novruzun transmədəni mahiyyəti ifadə edilərək, Türk mədəniyyətinin dərin zənginliyini və Türk xalqlarının ortaq dəyərlərini gələcək nəsillərə ötürmək əzmi bir daha vurğulanır, Azərbaycanın və TDT-yə üzv dövlətlərin, həmçinin Türkiyə Prezidentinin təşəbbüsü ilə Novruz bayramının Təşkilat çərçivəsində qeyd olunması barədə Katibliyə tapşırıq verilib.

Göründüyü kimi, Türkdilli dövlətlər arasında qurulan əməkdaşlıq daha da güclənir və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafında önəmli rol oynayır. Naxçıvan sazişinin imzalanmasından keçən müddət ərzində reallaşan layihələr, imzalanan sazişlər və s. türk dövlətləri arasında münasibətləri daha da yaxınlaşdırmış oldu. Keçən dövr ərzində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

Zümrüd BAYRAMOVA

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi

Dövlət başçısının Sərəncamı ilə Möminə xatun türbəsinin bərpası və konservasiyasına dövlət büdcəsindən 1 (bir) milyon manat vəsait ayrılıb

Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində, özünüdərkində mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, istər sovet məkanında, istərsə də müstəqillik dövründə yaşadığımız illərdə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasına və inkişafına çox böyük önəm verib. Ulu Öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə olan münasibəti də aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin və vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Dövlət başçısı mütəmadi olaraq, din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir və dini ibadət yerləri təmir-bərpa olunub, inanclı insanların istifadəsinə verilir. Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də, dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır.

Görkəmli müsəlman alimlərinin, vəliəhdlərin, hökmdar və hökmdar ailəsi üzvlərinin, əmirlərin, vəzir və hərbi rəhbərlərin qəbirləri üzərində ucaldılan, üzəri xüsusi qübbələrlə örtülmüş tikili olan türbələrə də dövlətimiz tərəfindən diqqət ayrılır. Türbələr insanlar tərəfindən ziyarətgaha çevrilir.

AZƏRBAYCAN MEMARI ƏCƏMİ NAXÇIVANİNİN ŞAH ƏSƏRİ

Bu gün ölkəmizdə bütün tarixi-dini abidələr, ziyarətgahlar dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Naxçıvan şəhərində yerləşən, böyük tarix və mədəniyyət yadigarı olan Möminə xatun türbəsi də Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyev "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Möminə xatun türbəsinin özünəməxsus tarixi görkəminin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədilə Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix memarlıq abidəsində bərpa və konservasiya işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 1 (bir) milyon manat vəsait ayrılıb. Sənəddə o da qeyd olunur ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1 ci hissəsində göstərilən bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini növbəti illərdə Azərbaycan Respublikasının dövlət büdcəsi layihələrində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcəkdir. Öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə bütövlükdə İslam aləminin şah əsərləri sırasında fəxri yer tutur. Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. Möminə xatun türbəsi xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınmışdır.

Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəri, Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biri olan türbənin tikilmə tarixi onun giriş qapısının üzərindəki kitabədə əks olunmuşdur. Kitabədə: "adil məliki, böyük qalib Şəmsəddin Nüsrət əl islam və əl müslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz dünyanın və dinin cəlalı, İslamın və müsəlmanların namusu Möminə xatunun xatirəsinə tikməyi əmr etdi!"

Mənbələrdə göstərilir ki, memarlıq tarixi tədqiqatçısı Əjdər Ələsgərzadə baştağ çərçivəsinin üstündə abidənin tikilmə tarixinin "məhərrəm 582" (miladi 1186)-cı ilin yaz çağı olduğunu aydınlaşdımışdır.

BƏDİİ TƏFƏKKÜRÜN DƏRİNLİYİ VƏ ZÖVQÜN İNCƏLİYİ

Türbə yaxınlığında olmuş baştağın kitabəsindəki məlumata və tarixi qaynaqlara əsaslanan tədqiqatçılar belə bir nəticəyə gəlmişdir ki, türbə Məhəmməd Cahan Pəhləvanın ölümündən bir az öncə bitmiş, baştağ isə onun ölümündən sonra tikilmişdir. C. Qiyasi ehtimal edir ki, Məhəmməd Cahan Pəhləvanın özü də bu türbədə dəfn edilmişdir. Tədqiqatçı Cəfər Qiyasinin bu fikrinə görə türbənin yerli əhali arasında "Atabəy Günbədi" adlandırılması onun Atabəylərin soy türbəsi olduğuna nişanədir.

Möminə xatın türbəsinin ümumi quruluşu Naxçıvan memarlıq məktəbi üçün xarakterikdir. Türbə yeraltı sərdabə və yerüstü qülləvari hissədən ibarətdir. Yusif Küseyir oğlu türbəsi ilə müqayisədə memar bu türbənin xarici bəzəyində həndəsi ornamentlərin daha mürəkkəb kompozisiyasından istifadə etmişdir. Ornamentlərdə rəngli kaşılardan istifadə edilməsi türbənin zahiri görünüşünə daha xoş görkəm vermişdir. Mömünə Xatun türbəsində memar Əcəminin ustalığı, həmçinin bu türbəni sifariş edənin nüfuzu və böyüklüyü də əks olunmuşdur. Möminə xatun türbəsinin memarlıq və plan tərtibatında, Əcəmi, qüllələvari türbələrə xas olan bütün xüsusiyyətləri özünün əvvəlki əsərlərindən də daha aydın və parlaq ifadə etmişdir. Türbənin memarlıq həllində kompozisiya quruluşları, memarlıq forma və üsulları daha mükəmməl icra edilmişdir. Türbə, Atabəylər Memarlıq Kompleksinə daxil olan tikililər arasında memarlıq elementlərinin zənginliyi ilə seçilir. Onüzlü sərdabənin üzərində eyni biçimli qüllənin uca kərpic tutumu yüksəlir.

Təkcə Azərbaycan memarlığında deyil, ümumiyyətlə İslam memarlığında ən uca və incə kompozisiyalı türbələrdən biri olan Mömünə Xatun türbəsinin uzunömürlüyü ilk olaraq onun mühəndis həllinin bitkinliyi ilə bağlıdır. Memar Əcəmi öz əsərində təkcə bədii təfəkkürün dərinliyi, zövq incəliyi deyil, eləcə də geniş riyazi biliyə və zəngin yaradıcılıq təcrübəsinə əsaslanan mühəndislik dühası nümayiş etdirmişdir. Abidənin dayaq sistemi, xüsusilə sərdabəsinin quruluşu ilə tanışlıq əyani göstərir ki, memar öz çağında "mühəndislər başçısı" adını layiqincə almışdır.

Çoxəsrlik tarixə malik olan bu və ya digər abidələrimizə, dini ziyarətgahlarımıza, maddi-mədəniyyət abidələrimizə yeni həyat verilir. Azərbaycanda abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Müstəqillik dövründə yüzlərlə dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır.

MİLLİ DƏYƏRLƏRƏ, ADƏT-ƏNƏNƏLƏRİ BÖYÜK HÖRMƏTİN NÜMUNƏSİ

Müasir dövrümüzdə Azərbaycanın iqtisadi inkişafı, ölkədə hökm sürən sabitliyin məntiqi nəticəsi olaraq bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsinə də xüsusi diqqət ayırır. Dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Söz yox ki, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənənələrinə də böyük hörmətlə yanaşan bir ölkədir.

zərbaycanda dini abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Müstəqillik dövründə yüzlərələ dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir.



Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır. Bütün bunlar göstərir ki, dövlətimizin başçısı İslam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi də təmir edilib. Son illərdə Azərbaycanda yeni məscidlərin tikilməsi və və ya təmir edilməsi milli-mənəvi dəyərlərimizə olan diqqətdir. Tolerantlıq məkanı olan Azərbaycanda paytaxt Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpasına dövlətimiz tərəfindən ayrılan diqqətin daha bir göstəricisi oldu. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdisə. indi daha müasir və geniş məscid kompleksində eyni zamanda, 1800 nəfərin ibadət etməsinə şərait yaradılıb. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Onu da vurğulayaq ki, kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır.

Dünya xalqları arasında özünəməxsus yeri olan Azərbaycan bəşəri ideyaları, adət-ənənələri, maddi və mənəvi xəzinəsi ilə zəngin irsə sahibdir. Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi dünyaya töhfəsini verir. Bu sahəyə dövlət qayğısının artması dəyərlərimizi dünyada tanıtmaq sahəsində əhəmiyyətli rol oynayır. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra xalqımızın dini-mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, din və vicdan azadlığının təmin olunması, dövlət-din münasibətlərini tənzimləyən qanunvericiliyin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, dini abidələrin, məscidlərin, ibadət evlərinin təmir və bərpa olunması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edib.

N.ƏLƏDDİNQIZI

Dünya ölkələrindən dost təbrikləri!

Prezident İlham Əliyev: "Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir"

XX əsrin ikinci onilliyi Azərbaycan tarixində dərin izlər buraxıb. Həmin dövrdə baş vermiş tarixi hadisələrdən biri faciə, insanlıq əleyhinə cinayət, soyqırımı idisə, digəri qürur və iftixar tariximiz idi. 1918-ci ildə Azərbaycan xalqı həm 31 Mart Soyqırımına məruz qalıb, həm də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətini yaradıb. 1918-ci il mayın 28-də bütün Şərq dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixində şanlı, qürur doğuran səhifələrdəndir. Çox təəssüf ki, az vaxtdan sonra - 1920-ci ilin aprelində bu respublika süqut etdi.

1918-ci il mayın 28-i Azərbaycanın ictimai-siyasi həyatında baş verən tarixi hadisədən 107 illik zaman ötür. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi. 71 il sovet dövründə yaşayan Azərbaycan, müstəqilliyini bərpa etdikdən sonra, hər il ölkəmizdə 28 May Respublika Günü böyük təntənə ilə qeyd edilir. Keçirilən tədbirlərdə Cümhuriyyət dövrünə bir daha nəzər salınır, onun tariximizdəki yeri və rolu ətraflı təhlil edilir, dövlət quruculuğu təcrübəsi hərtərəfli öyrənilir.

Bu əlamətdar tarixi günlə bağlı dost ölkələrdən təbriklər Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanır. Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Azərbaycanın Müstəqillik Günü münasibətilə dost Azərbaycan xalqına ən səmimi təbriklərini çatdırıb: "Misir Azərbaycanla illər ərzində uğurla inkişaf edən və ortaq maraqlarımızın irəlilədilməsinə yönəlmiş güclü öhdəliklə möhkəmlənən səmimi və yaxın ikitərəfli münasibətləri yüksək qiymətləndirir. Fürsətdən istifadə edərək, qarşıdakı illərdə Misir-Azərbaycan əlaqələrinin daha da dərinləşməsində və dost xalqlarımızın qarşılıqlı rifahı naminə əməkdaşlığımızın şaxələndirilməsində Misirin maraqlı olduğunu bir daha vurğulamaq istəyirəm. Hörmətli cənab Prezident, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, dost Azərbaycan xalqına davamlı inkişaf və firavanlıq arzulayıram" - deyə təbrikdə bildirilib.

Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlz "Mən çox şadam ki, ölkələrimiz belə sıx əlaqələrə malikdir və dostluğumuzun daha da möhkəmlənməsini səbirsizliklə gözləyirəm. Ümidvaram və əminəm ki, ölkələrimiz qlobal miqyasda hamımıza təsir edən iqlim dəyişikliyinin və ətraf mühit problemlərinin müsbət həlli üçün əməkdaşlıq edə bilərlər. Həyat yoldaşım və mən bayram münasibətilə Sizə və bütün azərbaycanlılara ən xoş arzularımızı yetirməkdən böyük məmnunluq duyuruq", - deyə təbrikində diqqətə çəkib.

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudan ölkəmizin Müstəqillik Günü münasibətilə böyük məmnuniyyətlə təbrik edib və ən xoş arzularını çatdırıb.

Çex Respublikasının Prezidenti Petr Pavel, Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Belen və başqa dövlətlərin rəhbərlərindən ünvanlanan təbriklərin hər birində Azərbaycan Prezidenti İlham Əliyevə Azərbaycan Respublikasının milli bayramı münasibətilə səmimi təbriklər ifadə olunub. Avstriya Respublikasının Federal Prezidenti "Bu yaxınlarda Azərbaycanın və Ermənistanın sülh sazişi ilə bağlı razılığa gəlmələri ümid mənbəyidir və biz perspektiv vəd edən bu inkişafı alqışlayırıq. Biz yalnız Ermənistanla müqavilənin mümkün qədər tez imzalanmasını təşviq edə və bununla da hər iki ölkənin xalqlarının qarşılıqlı rifahı üçün bu münaqişəni qəti şəkildə başa çatdıra bilərik. Fürsətdən istifadə edərək, Sizin və ailənizin rifahı, eləcə də Azərbaycan xalqının əmin-amanlığı və xoşbəxt gələcəyi ilə bağlı ən xoş arzularımı çatdırıram", - deyə təbrikdə yer alıb.

YENİ DÖVLƏT VƏ CƏMİYYƏT NÜMUNƏSİ

Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamları dövlətçilik tariximizə olan böyük ehtiramın nümunəsi kimi tarixiləşdi. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi.

1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının xidmətləri danılmazdır. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların və peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. AXC Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Tarixdən bildiyimiz kimi, AXC Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. AXC Paris Sülh Konfransının qərarına əsasən, müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr və sazişlər bağlamışdı. AXC 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində, aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya tabe olundu. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb etdi.

"AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURUCULARI ÖLKƏMİZ, XALQIMIZ ÜÇÜN ÇOX BÖYÜK İŞLƏR GÖRMÜŞLƏR"

Cümhuriyyət dövründə milli ordumuzun yaradılması, atributlarımızın, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər görülüb. Hələ o dövrdə söz azadlığı, demokratiya, gender bərabərliyi kimi məxsusi dəyərlərə malik olub. Bu dövrdə AXC müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olaraq, Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verib. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırıb. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, "Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordu yaradılmışdır və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir.

DÖVLƏT TƏSİSATLARININ YARADILMASI

1991-ci ildə öz müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası, 1918-1920-ci illərdə, 23 ay ərzində, mövcud olan və müsəlman Şərqində ilk dünyəvi-demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər Azərbaycan xalqının tarixinin parlaq səhifəsidir.

Qısa müddətdə, tarixi bir missiyanı yerinə yetirərək, genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub. Cümhuriyyət dövründə əldə olunan nailiyyətlər sırasında təhsil sahəsində olan uğurları da qeyd etməliyik. Xalq təhsili və maarifləndirmə üzrə ilk nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən təsis edilib. Nazirlər Şurasının qərarı ilə 30 iyun 1918-ci ildə üç şöbədən - ümumi orta təhsil, ali və orta ixtisas təhsili, peşə məktəblərindən ibarət strukturu təsdiq edilib. Xalq təhsili sahəsində ilk önəmli tədbir məktəblərin milliləşdirilməsi olub, bu da, təhsilin doğma Azərbaycan türk dilinə keçirilməsi idi. Bununla da, ilk dəfə olaraq, azərbaycanlı uşaqların doğma dildə təhsil alma hüququ qanuniləşdirilib.

TARİXİ VARİSLİK ÜZƏRİNDƏ YENİ MÜASİR MÜSTƏQİL AZƏRBAYCAN

Dövrün nadir sistemi olan AXC cəmi 23 ay yaşadı və bolşeviklərin işğalı ilə üzləşdi. Nəhayət, 71 ildən sonra, Sovet İttifaqının dağılması ilə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdi. Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra xalqımız Cümhuriyyətin ideallarını davam etdirərək, bu tarixi varislik üzərində yeni müasir müstəqil Azərbaycan dövlətini yaradıb. AXC-nin hüquqi varisi olan müstəqil respublikamız Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq, sürətlə inkişaf edir və dünya birliyində layiqli yer tutur.

Ölkəmizin müstəqillik illərində qazandığı nailiyyətlərin bünövrəsi, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər qısa bir zamanda Azərbaycanı düşdüyü xaosdan, böhrandan çıxara bildi. Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir.

"ONLARIN NİYYƏTLƏRİNİ BİZ HƏYATDA TƏMİN ETDİK, HƏYATA KEÇİRDİK"

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlıq əlaqələrinin qurulmasına nail oldu. Azərbaycan Prezidenti İlham Əliyev milli mənafelərlə bağlı problemlərin həllində həssas və fəal yanaşma nümayiş etdirdi. Azərbaycan dünyanın maraq dairəsinə əbədi daxil oldu və geosiyasi platformada ölkəmiz güc və nüfuz sahibinə çevrildi.

Bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Bu gün Azərbaycan, yerləşdiyi bölgədə əsas inkişaf məkanı olmaqla, nəhəng infrastruktur layihələri icra edir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində son dərəcə vacib faktora çevrilib. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələri, modernləşməsi və vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi qürurlandırır. Bu məhz müstəqil bir dövlət olaraq Azərbaycanın müstəqil şəkildə dövlət başçısı tərəfindən həyata keçirdiyi siyasətinin nəticəsidir. "Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin qorunmasının, möhkəmlənməsinin ən vacib məsələlərdən biri olduğunu qeyd edib: "1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!"

Nəzakət ƏLƏDDİNQIZI

Özbəkistan Azərbaycan - Türkiyə alyansına qoşulur

Daşkənd müttəfiqlərinə daxili pasportlardan istifadə edərək ölkəyə daxil olmağa icazə vermək niyyətindədir

Özbəkistan prezidenti Şavkat Mirziyoyev Türk Dövlətləri Təşkilatının Budapeştdə keçirilən qeyri-rəsmi sammitində iştirak edərək bir sıra təkliflərlə çıxış edib. O, Özbəkistan tərəfinin təşəbbüsü ilə imzalanmış Türk Dövlətlərinin Strateji Tərəfdaşlıq, Əbədi Dostluq və Qardaşlıq Müqaviləsinin imzalanmasının aktuallığını vurğulayıb. Bir gün əvvəl Mirziyoyev Özbəkistan və Azərbaycanın müttəfiqlik statusunu hüquqi cəhətdən təmin edən və Daşkəndin əvvəllər Türkiyə ilə Azərbaycan arasında ikitərəfli saziş olan strateji Şuşa Bəyannaməsinə qoşulmasını rəsmiləşdirən qanunu imzalayıb. Özbəkistan həmçinin müttəfiqlərinə daxili şəxsiyyət vəsiqələrindən istifadə etməklə ölkəyə daxil olmaq imkanı verməyə hazırdır. Özbəkistan müttəfiqlərinə, o cümlədən təkcə Azərbaycana deyil, Qazaxıstana da ölkəyə daxili şəxsiyyət vəsiqəsi ilə daxil olmaq imkanı vermək niyyətindədir. Müvafiq müddəa Özbəkistan prezidenti Şavkat Mirziyoyevin 21 may 2025-ci il tarixli fərmanında yer alıb. Xarici İşlər Nazirliyinə üç ay müddətində müvafiq ölkələrlə danışıqlara başlamaq və onların nəticələrinə əsasən təkliflər vermək tapşırılıb.

"Müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanması və Şuşa Bəyannaməsinə qoşulması yeni birliyin yaranması sayıla bilər", - analitik mərkəzin rəhbəri Soxbet Məmmədov bildirib. Eyni zamanda ekspert vurğulayıb ki, Azərbaycan digər inteqrasiya birliklərinə qarşı müttəfiq təşkilatlar yaratmaq məsələsini qaldırmır. "Bakı öz milli maraqlarına əsaslanaraq həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə müttəfiqlik və tərəfdaşlıq əlaqələri qurur və əlaqələri, o cümlədən türkdilli ölkələrlə gücləndirir", - Məmmədov qeyd edib. Xatırladaq ki, Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycan arasında hələ 2021-ci ilin iyununda imzalanmış birgə müdafiəyə dair strateji sazişdir. İmza üçün yer seçimi simvolik xarakter daşıyırdı: Qarabağın əsas mərkəzi olan Şuşa şəhəri 2020-ci ildə 44 günlük müharibə nəticəsində Ermənistan silahlı qüvvələrinin işğalından azad edilib. "Daşkəndin Şuşa Bəyannaməsinə qoşulması bütün türk dövlətləri üçün uğurdur", politoloq Armen Xanbabyan deyib.

Onun fikrincə, bu, Özbəkistan tərəfinin məqsədyönlü şəkildə Qərbi vurğulamaqla çoxşaxəli xarici siyasətini davam etdirdiyini göstərir. Eyni zamanda, bu fakt özünü türk dünyasının İstanbulun himayəsində "toplayan" kimi qələmə verən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasətinin mühüm uğurunu göstərir. Ekspert hesab edir ki, "Ərdoğan Daşkəndin bu addımını aktiv hesab edə bilər, çünki Özbəkistan postsovet məkanında Mərkəzi Asiyada əhali və iqtisadi artım templərinə görə lider ölkədir".

Qeyd edək ki, Şuşa Bəyannaməsində təkcə hərbi-siyasi deyil, həm də iqtisadi və humanitar əməkdaşlıqdan bəhs edilir. Özbəkistanın üzv olması ilə bütün bu aspektlər üçtərəfli format alır. Sadə dillə desək, indi hərbi qarşıdurma baş verərsə, Ankara və Bakı Daşkəndə "mənəvi" dəstəkdən daha çox yardım etməli olacaqlar. Müdafiə sənayesi sahəsində əməkdaşlıq, birgə hərbi təlimlər, kəşfiyyat məlumatlarının mübadiləsi də nəzərdə tutulur. "Türkiyənin NATO-nun üzvü olduğunu xatırlatmaq çətin deyil, bu o deməkdir ki, bundan sonra Şimali Atlantika Alyansının Özbəkistanda hərbi-siyasi təsiri ardıcıl olaraq artacaq. Əslində, Ankara təkcə Transqafqazda deyil, həm də Mərkəzi Asiyada təhlükəsizlik məsələləri sahəsində koordinator rolunu oynamağa çalışır", - Xanbabyan qeyd edib.

Ancaq türklər bir neçə il əvvəl hərbi sahədə əldə etdikləri nailiyyətləri bölüşməyə başlayıblar. 2022-ci ilin martında Türkiyə və Özbəkistanın müdafiə nazirləri hərbi əməkdaşlıq haqqında genişləndirilmiş çərçivə sazişi imzalayıblar. Bu tərəfdaşlığın əməli ifadəsi Türkiyənin EJDER 4x4 zirehli texnikasının tədarükü və mütəmadi olaraq birgə hərbi təlimlərin keçirilməsidir. Eyni zamanda, Ankara Özbəkistanla məhdudlaşmayaraq, bütün Orta Asiya ölkələri, o cümlədən farsdilli Tacikistanla əlaqələri fəal şəkildə inkişaf etdirir. Bununla belə, genişmiqyaslı təşəbbüslərin ən yaxın əlaqələndirilməsi və həyata keçirilməsi Türk Dövlətləri Təşkilatı (OTG) çərçivəsində müşahidə olunur.

Qarşılıqlı əlaqələrin dərinləşməsi vektoru gələcək üçün planlarla təsdiqlənir. Birgə Ərazi Təşkilatının baş katibi Kubanıçbek Omuraliyev bildirib ki, İDEF-2025 müdafiə sərgisi çərçivəsində ilk dəfə olaraq İstanbulda üzv ölkələrin müdafiə müəssisələrinin rəhbərlərinin görüşü keçiriləcək. Onun sözlərinə görə, bu, hərbi sənaye kompleksində çoxtərəfli əməkdaşlığın formalaşması istiqamətində əsas addım olacaq. Növbəti addım müdafiə nazirlərinin görüşü olacaq. Eyni zamanda, regional təhdidlərə əlaqələndirilmiş cavab tədbirləri və kollektiv təhlükəsizliyin gücləndirilməsi üçün "Ümumi Təhlükəsizlik Konsepsiyası" hazırlanır.

Ömürəliyevin vurğuladığı kimi, təhlükəsizlik və müdafiə birləşən ərazi icmalarının gündəmində əsas sahələrə çevrilir. Bunun strateji əsasını İstanbul və Səmərqənd Bəyannamələri, həmçinin əməkdaşlıq və informasiya mübadiləsi şəbəkəsinin yaradılmasını nəzərdə tutan "Türk dünyasına baxış - 2040" konsepsiyası qoyur. Onun əsas məqsədi radikallaşma, ekstremizm, islamofobiya, ksenofobiya və terrorizmlə mübarizənin effektivliyini artırmaq, həmçinin iştirakçı ölkələrin sərhəd təhlükəsizliyini gücləndirməkdir.

Politoloq Derya Qarayev Azərbaycan diplomatiyasının bölgədəki fəallığı fonunda belə qənaətə gəlir ki, Türkiyə tərəfinə "təzyiqlər" müvəqqəti olaraq azalıb və onun kursu Mərkəzi Asiya liderləri tərəfindən həddindən artıq hədsiz kimi qəbul edilib. Müvafiq olaraq, Türk Dövlətləri Təşkilatında potensial olaraq daha məqbul əlaqələndirici, birləşdirici kimi Azərbaycan Prezidenti İlham Əliyevin simasını ön plana çıxarmaq tendensiyası mövcuddur. Müdafiə sahəsində əməkdaşlığa gəlincə, bəyanatlara və görüşlərə baxmayaraq, onun ciddi silahlanma baxımından praktiki həyata keçirilməsi əksər iştirakçı ölkələr üçün maliyyə məhdudiyyətləri ilə üzləşə bilər.

D.Qarayev onu da qeyd edib ki, Özbəkistanla Azərbaycan arasında elan edilmiş müttəfiqlik klassik hərbi ittifaq kimi şərh edilməməlidir. Daha dəqiq səciyyələndirmə, yəqin ki, "xeyirxah neytrallıq"dır. Bu o deməkdir ki, Özbəkistan Türkiyə və ya Azərbaycan tərəfində hərbi əməliyyatlarda iştirak edəcək və rəqiblərinə dəstək verəcək, amma bu, bir az sonra baş verəcək. Özbəkistanın xaricdə hərbi mövcudluğunun olmaması və ölkələr arasında birbaşa quru sərhədi kimi amillər bu fikri dəstəkləyir.

V.VƏLİYEV

YAP nümayəndə heyətinin Şimali Kipr Türk Cümhuriyyətinə səfəri başa çatıb

Mayın 21-də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar Yeni Azərbaycan Partiyası (YAP), Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) və ŞKTC-nin Ulusal Birlik Partiyasını (UBP) təmsil edən gənclərdən ibarət "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsinin iştirakçılarını qəbul edib.

Ersin Tatar xalqlarımız arasında münasibətlərin tarixi ənənələrə, ortaq dəyərlərə, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını bildirib. O, üç ölkənin gənclər təşkilatları arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsinin müsbət nəticələr verəcəyinə və bütün tərəflər üçün faydalı olacağına əminliyini ifadə edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov yüksək səviyyədə təşkil olunan səfərin hər üç ölkənin iqtidar partiyalarının gəncləri arasında əlaqələrin inkişafına əlverişli zəmin yaratdığını qeyd edib. O, hakim partiyaların gənclər qollarının birgə fəaliyyətinin müştərək hədəflərin reallaşdırılması baxımından önəmini diqqətə çatdırıb.

AK Partinin Gənclik Qollarının rəhbəri Yusuf İbiş və UBP-nin Gənclik Qollarının təmsilçisi Mahmud Hüdaverdi "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsi çərçivəsində gənc partiya nümayəndələrinin bir araya gəlməsindən məmnunluqlarını ifadə ediblər. Həmin gün gənclərin Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin inzibati binası ilə tanışlığı olub. Hakim partiyaları təmsil edən gənclər ŞKTC-nin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstelin adından verilən rəsmi ziyafətə də qatılıblar.

"Ermənistanı elə-belə yaratmayıblar"

"Ermənistanın ümumiyyətlə dünya xəritəsində peyda olması, bu ölkənin yaradılması məhz xarici, xüsusilə xristian dövlətlərinin qüvvələri ilə irəli sürülmüş bir təşəbbüs idi. Bu ölkəni elə-belə yaratmayıblar. Bu ölkə yalnız türkmüsəlman dünyasının göbəyində yer almaqla artıq neçə illərdir, hətta bir-iki əsrdir ki, burada dağıdıcı, pozucu rolunu oynayır. Ermənistanın təyinatı da məhz budur. Yəni, onu ona görə yaradıblar ki, bu, elə "maşa" kimi onların sifarişlərini yerinə yetirsinlər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib. Onun sözlərinə görə, hal-hazırda Ermənistanın bu funksiyası bir az da gücləndirilməyə doğru gedir. Çünki Gürcüstanı Qərb ələ ala bilmədi. Gürcüstanda keçirilən son seçkilərdə Qərbin institutları orada dəhşətli şəkildə biabır oldular, məğlub oldular: "Ona görə də indi Ermənistan yeganə vasitə və yeganə açardır ki, onun əli ilə burada proseslərdə əngəllər yarada bilsinlər. Belə baxanda, sülh kimə mane olur. Əksinə, əgər erməni xalqı inkişaf etmək istəyirsə, onun institutları ayağa qalxmaq istəyirsə, onlar gərək sülhdən istifadə etsinlər. Onlar gərək

ilk növbədə sülh uğrunda gedən mübarizənin qalibinə çevrilsinlər. Müharibəni uduzdular bəli, çünki Azərbaycan haqq tərəfində idi, Azərbaycan güclü idi və öz sözünü demişdi. Onlar sülhdən imtina etdilər, kompromis axtarışını rədd etdilər, ona görə də paylarını aldılar. Amma sülh uğrunda gedən mübarizədə Ermənistan uduzsa, bu, faktiki olaraq onların dövlətçiliyinin sonuna aparan bir yola çevriləcək. Çünki bu, qaçılmazdır. Yəni, bölgədə olub, bölgə ilə savaşa daim qatılmaq ağlasığmaz bir seçimdir. Tarixə baxsaq, görərik ki, əslində Ermənistan ən azı dörd dəfə böyük miqyaslı müharibələri bölgəmizdə meydana gətirib çıxarıb və hamısında da həm biabır olub, həm də uduzub. Son Qarabağ müharibəsi, ikinci Qarabağ müharibəsi də buna bariz bir təsdiqdir ki, bəli, Ermənistan həddini aşmamalıdır.

Əgər siz köçəri millət olaraq gəlib burada peyda olmuşsunuzsa, yerli əhali ilə dil tapmalısınız. Bu bütün zamanlar, bütün millət və toplumlar üçün bir qanundur, qaçılmaz qanundur. Ona görə də Ermənistan çox böyük riskləri meydana gətirməklə sifarişləri həyata keçirir. Amma indi onun arxasında duran Fransa, xüsusilə o da yavaş-yavaş geri çəkilir. Çünki Fransa, bildiyiniz kimi, Suriyada məğlub oldu, Türkiyənin qarşısında tab gətirə bilmədi və həm də bu, Fransanın Ermənistana olan diqqətinin və dəstəyinin zəifləməsinə gətirib çıxara biləcək bir amildir.Azərbaycanın təqdim etdiyi sülh planı əlbəttə ki, ən yaxşı çıxış yoludur həm bizim üçün, həm də Ermənistan üçün.

Digər tərəfdən də təhlükəsizliyin qorunmasının ən münasib, ən normal yolu o danışıq, dialoq və əməkdaşlıqdan keçir. Biz bunu Ermənistana təklif edirik.Əgər Ermənistan, həqiqətən də, Nikol Paşinyanın dediyi kimi, mifik ölkədən real ölkəyə çevrilmək istəyirsə, gərək bizim bu təklifimizi iki əlli dəstəkləsin, bütün ürəklə ona tərəf getsin. Mən əlbəttə düşünürəm ki, prinsip etibarilə artıq Ermənistan bütün alternativlərin hamısını yoxladıqdan sonra görür ki, artıq çarəsiz qalır və onun yeganə çıxış yolu Azərbaycanın sağlam, praqmatik, rasional yanaşması ilə, planı ilə barışmaq və razılaşmaqdır.O, bunu istəyir, amma bunu etməyə qoymayan qüvvələr var. Bu, həm ABŞ siyasi dairələridir, həm lobi dairələridir, digər tərəfdən diaspor strukturlarıdır və nəhayət, Erməni kilsəsidir. Bu Erməni kilsəsi demək olar ki, Erməni xalqının axına qarşı çıxacaq bir instituta çevrilir. Çünki kilsə əgər Allaha çağırışlar edirsə, o, niyə gərək qarşıdurmanı, zorakılığı, barbarlığı təbliğ etsin? Amma çox təəssüf ki, bu kilsənin özünə məxsus belə əcayib və anlaşılmaz təyinatı var. Beləliklə, artıq erməni xalqı gərək özü seçsin ki, onları həmişə oda salan kimdir və o oddan da uzaqlaşsınlar".

Ziya Hikmətoğlu

Ermənistan Qafan, Gorus və Basarkeçərdən məhrum oluna bilər

Beynəlxalq hüquq Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın maddi və mədəni irsinə vurulan zərərin ödənilməsi haqqında nə deyir?

Aparılan araşdırmalara və psixoloqların rəylərinə, eləcə də tanınmış həkimlərin laboratoriya təhlillərinə görə, ermənilər vəhşiləşmiş, insanlıq hissindən məhrum olan toplumdur. Onlar insanları öldürməyi, qarət və talanlar həyata keçirməyi, böyük dağıntılar törətməyi özlərinin fəaliyyət istiqamətləri hesab edirlər. Həm də sübuta yetirilir ki, güc vasitəsi ilə erməni vəhşiləri ciddi şəkildə cəzalandırılmasa, mövqelərindən çəkilmirlər. Erməni terrorçu toplumunun Azərbaycan torpaqlarını işğal etməsi və işğal edilən ərazilərdə apardıqları vandalizm aktlarına əsasən demək olar ki, bu toplum haqqında deyilənlər və yazılanlar əsaslıdır. Fikir verin, BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd qətnamə qəbul etsə də Ermənistan bu qərarlara əhəmiyyət verməyib. Bununla yanaşı AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası Ermənistanın işğalçılıq siyasətini kəskin pisləyən bəyanatlar qəbul ediblər. Lakin vəhşi erməni toplumu heç beynəlxalq qanunları, qərar və tövsiyələri yerinə yetirməyib. Əksinə, daha böyük təxribatları ilə fəaliyyətlərinə haqq qazandırmağa çalışıblar. Bu isə onların açıq şəkildə dünyaya meydan oxumaları idi. Təbii ki, sonsuza qədər danışıqlar aparıla bilməzdi. Bir gün status-kvo dəyişməli idi və belə də oldu. 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində torpaqlarımız Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad edildi. 44 günlük müharibə ilə Ermənistanın 30 il qurduğu mühəndis-istehkam qurğuları, yüzlərlə hərbi texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Dəyəri 5 milyard ABŞ dolları olan hərbi texnikası qənimət olaraq götürüldü. Bu böyük qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək gücündədir. Həm də yazılanlar və deyilənlərə əsasən, "ermənin başı zopa görməsə, geri çəkilməz" fikri öz təsdiqini tapmış oldu. "Dəmir yumruq"un işə düşməsindən sonra Ermənistanın terrorçu rejimi Azərbaycana yalvarmağa başladı. Bütün hakimiyyət nümayəndələri "Qarabağ Azərbaycandır" deyə bəyan etdilər. Qarabağda aparılan 23 saat 44 dəqiqəlik antiterror əməliyyatları ilə bölgədəki bütün terrorçu hərbi birləşmələr məhv edildi, cinayətkar dəstənin başında dayananlar isə həbs olunaraq Azərbaycan istintaq orqanlarına təhvil verildilər. Hazırda onların məhkəməsi keçirilir. Məhkəmədə Azərbaycanın maddi və mədəni irsinə vurulan zərər haqqında yeni faktlar, ilginc məlumatlar üzə çıxır.

Dövlət ittihamçısı: "Dövlət mülkiyyətində olmuş ümumilikdə 37168 ədəd əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vurulub"

Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə keçirilən məhkəmə prosesində dövlət ittihamçıları işğal dövründə Azərbaycana dəyən zərərin miqyası barədə ittiham aktını elan ediblər. Dövlət ittihamçısı Təranə Məmmədova ittiham aktına əsasən elan edib ki, Ermənistan silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrinin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal olunub və uzun illər ərzində işğal altında saxlanılmış, bununla da xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37168 ədəd əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vurulub.

Dövlət ittihamçısı Fuad Musayev bildirib ki, Xankəndi şəhəri və onun Kərkicahan qəsəbəsinin işğal olunması nəticəsində 2944 nəfər dinc sakin didərgin salınıb, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 4579 ədəd əmlak üzrə 636 milyon manatdan artıq maddi ziyan vurulub. Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Kərki kəndinin işğalı (hazırda Sədərək rayonunun Kərki kəndi) nəticəsində 461 nəfər dinc sakin didərgin salınıb, xüsusi mülkiyyətdə və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 54 ədəd əmlak üzrə 7 milyon manatdan artıq maddi ziyan vurulub.Qazax rayonunun 7 kəndinin - Bağanis-Ayrım, Aşağı Əskipara, Xeyrimli, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskipara işğal olunması nəticəsində 3159 nəfər dinc sakin didərgin salınıb, xüsusi və dövlət mülkiyyətində olan ümumilikdə 896 ədəd əmlak üzrə 137 milyon manatdan artıq maddi ziyan vurulub. Xocalı şəhəri və Əsgəran qəsəbəsinin də daxil olduğu, ümumilikdə 50 kənddən ibarət Xocalı rayonunun işğal olunması nəticəsində 7161 nəfər dinc sakinin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 1067 ədəd əmlak üzrə 103 milyon manatdan artıq maddi ziyan vurulub.

"Şuşa rayonunun işğal olunması nəticəsində 16299 nəfər dinc sakin didərgin salınıb"

Məhkəmə prosesində Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev bildirib ki, Şuşa şəhəri, Turşsu qəsəbəsi və 37 kənddən ibarət Şuşa rayonunun işğal olunması nəticəsində 16299 nəfər dinc sakin didərgin salınıb, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 2769 ədəd əmlak üzrə 391 milyon manatdan artıq maddi ziyan vurulub. Xocavənd şəhəri, 2 qəsəbə (Qırmızı Bazar və Hadrut qəsəbələri) və 80 kənddən ibarət olan Xocavənd rayonunun işğal olunması nəticəsində 7451 nəfər azərbaycanlı sakini məcburi qaydada evlərindən didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 2607 ədəd əmlak üzrə cəmi 340 milyon manatdan artıq maddi ziyan vurulub.

Laçın şəhəri, Qayğı qəsəbəsi və 124 kənddən ibarət olan Laçın rayonunun işğal olunması nəticəsində 57047 nəfər sakin məcburi qaydada evlərindən didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 15459 ədəd əmlak üzrə cəmi 2,7 milyard manatdan artıq maddi ziyan vurulub.Kəlbəcər şəhəri, İstisu qəsəbəsi və 147 kənddən ibarət Kəlbəcər rayonunun işğal olunması nəticəsində 48847 nəfər dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 17489 ədəd əmlak üzrə 2,2 milyard manatdan artıq maddi ziyan vurulub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli elan edib ki, Tərtər rayonunun bir sıra kənd və yaşayış məntəqələrinin işğal olunması nəticəsində 899 nəfər dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 1127 ədəd əmlak üzrə 155 milyon manatdan artıq maddi ziyan vurulub. Ağdam rayonunun böyük hissəsinin işğal olunması nəticəsində 100574 nəfər dinc sakin didərgin salınmış, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 31736 ədəd əmlak üzrə 3,7 milyard manatdan artıq maddi ziyan vurulub. Füzuli rayonunun böyük hissəsinin işğal olunması nəticəsində 83544 nəfər dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 22635 ədəd əmlak üzrə 3,4 milyard manatdan artıq maddi ziyan vurulub.

Cəbrayıl şəhəri, Xələfli, Xudafərin, Qumlaq, Mahmudlu qəsəbələri və 92 kənddən ibarət Cəbrayıl rayonunun işğal olunması nəticəsində 52141 nəfər dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 15206 ədəd əmlak üzrə 2,1 milyard manatdan artıq maddi ziyan vurulub.Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov qeyd edib ki, Zəngilan şəhəri, 5 qəsəbə və 79 kənddən ibarət Zəngilan rayonunun işğal olunması nəticəsində 32775 nəfər dinc sakin didərgin salınmış xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 9679 ədəd əmlak üzrə 1,3 milyard manatdan artıq maddi ziyan vurulub.Qubadlı şəhəri və 93 kənddən ibarət Qubadlı rayonunun işğal olunması nəticəsində 29539 nəfər dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 10159 ədəd əmlak üzrə 1,8 milyard manatdan artıq maddi ziyan vurulub.

İttiham Aktından: "Müxtəlif işgəncələr verilməsi ilə ümumilikdə 613 nəfər şəxsin qəsdən öldürülüb məhv edilməklə Xocalı soyqırımı törədilib"

Məhkəmə prosesində açıqlanan ittiham aktında qeyd olunub ki, təcavüzkar müharibə nəticəsində ümumilikdə Azərbaycan Respublikasının mədəni sərvətinə aid olmaqla dəymiş zərərin qiymətləndirilməsi mümkün olan ən azı 697 tarix və mədəniyyət abidəsi hücum obyektinə çevrilməklə, hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə edilməklə, qəsdən böyük həcmdə yandırılmaqla, artilleriya qurğularından atəşlər açıb partladılmaqla və sair fiziki üsullarla qismən və tamamilə dağıdılmaqla, eləcə də oğurluq, soyğunçuluq, vandalizm aktları törədilməklə Azərbaycan Respublikasına və Azərbaycan xalqına 906 milyon manatdan artıq maddi ziyan vurulub.Eyni zamanda, Azərbaycan Respublikasının suveren ərazilərinin işğal olunması nəticəsində didərgin salınmış dinc sakinlərin sosial təminatı və maddi-məişət şəraitinin təmin olunmasına sərf edilmiş vəsaitlər nəzərə alınmaqla Azərbaycan dövlətinə ümumilikdə 8,8 milyard manatdan artıq maddi ziyan vurulub.

Ermənistan beynəlxalq məhkəmə qarşısında

Azərbaycan qanunvericiliyi ilə yanaşı beynəlxalq hüquq normalarına görə də, Ermənistan Azərbaycanın işğal etdiyi ərazilərdə maddi və mədəni irsi dağıtdığına, dövlətə məxsus, eləcə də əhalinin daşınan və daşınmaz əmlaklarını qarət və talan etdiyinə görə məsuliyyət daşıyır. Ümumilikdə hesablamalara görə, Ermənistanın Azərbaycana vurduğu zərər 800 milyard dollar həcmindədir. Beynəlxalq məhkəmələr ədalətli olacağı təqdirdə həmin vəsaitin Ermənistandan alınaraq Azərbaycana verilməsi barədə qərar çıxaracaq. Əgər Ermənistanın maliyyəsi olmasa, o zaman torpaqlarının böyük bir hissəsini, İrəvanı və Kümrünü, ən pis halda Qafanı, Gorusu və Basarkeçəri Azərbaycana verməli olacaq. BMT Baş Assambleyasının "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsinə əlavənin 36-cı maddəsinə əsasən, beynəlxalq hüquqazidd əmələ görə məsuliyyət daşıyan dövlət özünün qanunazidd əməli nəticəsində vurduğu zərəri restitusiya ilə ödənilməyən hissədə kompensasiya yolu ilə ödəməyə borcludur. Kompensasiya əldən verilmiş gəlir də daxil olmaqla, belə zərərin ödənilməsinə yönəlib. Müasir beynəlxalq hüquqda zərərin ödənilməsinin müəyyən formaları mövcuddur. Bu formalar bir tərəfdən zərərin tam ödənilməsi vəzifəsini, digər tərəfdən isə belə ödəmənin həyata keçirilməsi üsullarını əks etdirir. Bu məsələlər tam aydınlığı ilə BMT Baş Assambleyasının 12 dekabr 2001-ci ildə qəbul etdiyi 56/83 saylı "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnaməsində göstərilmişdir. Sənədin 28-ci maddəsində qeyd edilir ki, beynəlxalq hüquqazidd əməllər dövlətin beynəlxalq məsuliyyətinə səbəb olur ki, bu da hüquqi nəticələr doğurur. "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" adlı qətnamənin 31-ci maddəsinə əsasən, məsuliyyət daşıyan dövlət beynəlxalq hüquqazidd əməllər nəticəsində vurduğu zərəri ödəməlidir. Sənədin 34-cü maddəsində beynəlxalq hüquqazidd əməllər nəticəsində vurulmuş zərərin ödəmə formaları müəyyən edilib. Bu maddədə göstərilir ki, "beynəlxalq hüquqazidd əmələ görə vurulmuş zərərə görə tam ödəmə formaları restitusiya, kompensasiya və satisfaksiya formalarında ola bilər. Bu formalar həm ayrı-ayrılıqda, həm də bir-biri ilə bağlı istifadə edilə bilər".

Azərbaycan beynəlxalq hüquqi forumlarda Ermənistanın işğal dövrü zamanı ətraf mühitin və enerji infrastrukturunun dağıdılması da daxil olmaqla, bir sıra digər sahələrdə beynəlxalq hüququ pozmasına dair kompensasiya və maliyyə təzminatının qarşılanması istiqamətində iddialar qaldırır. Artıq Beynəlxalq Ədalət Məhkəməsi azərbaycanlılara qarşı törədilən kütləvi insan hüquqları pozuntuları ilə əlaqədar Azərbaycanın Ermənistana qarşı davam edən beynəlxalq hüquqi iddiaları üzrə qərar qəbul edib. Eyni zamanda Azərbaycan Ermənistanı Haaqa məhkəməsinə verib. Əminliklə demək olar ki, beynəlxalq birlik, xüsusilə də beynəlxalq məhkəmələr Azərbaycanın iddialarının haqlı və əsaslı olduğunu anlayırlar. Bu baxımdan beynəlxalq məhkəmələr ədalətli mövqe sərgiləyərək Ermənistana qarşı Azərbaycan dövlətinin qaldırdığı iddiaları təmin edəcək və bununla da daha bir vəhşi toplum-quruluş cəzasını almış olacaq.

İLHAM ƏLİYEV

Müəllim-şagird münasibətləri: təkcə tədrislə övladımız ”kor” olar

Müəllim-şagird münasibətləri bütün dövrlərdə aktual mövzu olub. Bu münasibətlər fonunda belə bir fikir formalaşıb ki, müəllim ikinci valideyndir. Yəni, günün yarısını məktəblərdə olan uşaqlara təbii ki, müəllim münasibəti, yanaşması, yaxşı mənada, onun təhsili ilə yanaşı, tərbiyəsində də mühüm əhəmiyyət kəsb edir.

Orta yaş qrupunda olan insanların hər biri yaxşı xatırlayar ki, o dövrlərdə məktəblərdə çox gözəl müəllim-şagird münasibətləri var idi. Valideynlərin bizə evdə təbliğatı isə məktəbdə müəllimlərə hörmət etməyimizlə, sayğı ilə yanaşmağımızla bağlı olardı. Bu səbəbdən də biz, sözün həqiqi mənasında, müəllimləri ikinci valideynimiz bilir və onların hər bir təlim-tərbiyəsinə əməl edirdik.

Lakin müasir dövrdə müəllim-şagird münasibətləri, çox halda, o dövrdəkilərə əsla bənzəmir. Tez-tez eşitdiyimiz xoşagəlməz münasibətlər fonunda düşünürük ki, bunun sonu necə olacaq? Bu barədə bir qədər ətraflı danışaq.

Müəllim-şagird münasibətləri müasir dövrdə

İndi o dövrün müəllimlərindən, onların hər bir uşağa münasibətindən söhbət düşəndə, əşi, o dövr ayrı dövr idi, deyirlər. Maraqlıdır, görəsən dəyişən nədir ki? Yenə də məktəb varsa, müəllim, şagird, valideyn varsa, təlim-tərbiyə varsa, bəs dəyişən nədir?

Xatırlayıram ki...

Bəli, o dövrdə müəllimlər ikinci valideynimiz idi. Qadın müəllimlər qızların anası, kişi müəllimlər oğlanların atası kimi bizə yanaşır, hər səhvimizi, qüsurumuzu o qədər incəliklə aradan qaldırırdılar ki, ruhumuz belə incimirdi. Yadımdadır, bir dəfə sinfimizdə qızlardan biri tənəffüs zamanı çantaları axtarıb pul götürmüşdü. Qızlardan biri bunu görmüşdü, lakin uşaqlara yox, birbaşa sinif rəhbərimizə demişdi. Təsadüfən də həmin saat sinif rəhbərinin dərsi idi. Dərs normal, sakit şəkildə keçdi. Zəng çalınanda müəllim qızlara qalmalarını, oğlanlara getmələrini dedi. Oğlanlar getdilər. Müəllim bizimlə söhbətə başladı. Bəlkə də o vaxt anlamazdıq. Lakin bu gündən həmin söhbətə qayıdanda müəllimin bizləri necə incəliklə başa salması, söhbəti necə bacarıqla açması, necə həssaslıqla aparması qarşısında baş əyməli oluram. Bir sözlə, söhbət o qədər mənalı, təsiredici oldu ki, növbəti tənəffüsdən sonra pullarımızı çantalarımızda gördük. Sinif yoldaşımız hər kəsin pulunu götürdüyü kimi də yerinə qoymuşdu.

Tək sinif rəhbərimiz yox, bütün fənn müəllimləri dərsdə baş verən hansısa kiçik bir hadisə üçün tənəffüs zamanı bizi saxlayır, söhbət edir, araşdırma aparırdı.

Əmək təlimi fənnini tədris edən müəllimimizin dilində hərf səsləndirmə problemi var idi. Bir dəfə oğlanlardan biri dərs başlayandan bir neçə dəqiqə sonra gəldi. Qapını döyüb içəri keçdi və müəllim ondan nə üçün yubandığını soruşdu və hirsləndi. O da qapını açıb çıxıb gedəndə müəllimin həmin qüsurunu göstərən tərzdə danışdı. Düzü, bu hamımıza çox pis təsir etdi. Müəllim isə heç bir kəlmə də danışmadı. Özünü elə apardı ki, sanki eşitməyib. Biz də sevindik ki, yaxşı ki, müəllim eşitməyib.

Sən demə, müəllim eşidibmiş, həm də çox gözəl eşidibmiş. Növbəti dərsdə bunun

şahidi olduq. Həmin oğlanı müəllim elə bir tərzdə başa saldı ki, bütün sinif uşaqları xəcalət çəkdik. Və bu, son hal oldu. Tənəffüs zamanı isə hamımız bir nəfər kimi həmin oğlanın üstünə getdik, hərəkətinə görə onu yaxşıca tənbeh etdik. O da qıpqırmızı oldu. Hiss olunurdu ki, səhvini anlayıb.

Ədəbiyyat müəllimimiz vardı. Bizə həm ədəbiyyatdan, həm də həyatdan dərs verirdi. Davranışımızın ən kiçik detallarınadək geniş şəkildə danışır, hər birimizin əsl insan olması üçün əlindən gələni edirdi. Sinfimizdə bir oğlan vardı, yaxşı oxumurdu. Bir dəfə onu elə gözəl şəkildə tənbeh etdi ki, uşaqlığımızla müəllimimizə, afərin, dedik.

Həmin oğlanın atası fəhlə idi. İşi də çətindi. Müəllim onu dərsi danışmağa qaldırdı. O da susub dayandı, bilmirdi çünki. Müəllim, ”niyə dərsini oxumamısan, işinin adı nədir?” deyərək təsirli bir söhbətə başladı. Oxumağının, təhsilinin atasına gələcəkdə böyük kömək olacağını, onun fəxri ola bilməsini elə həssaslıqla izah etdi ki, oğlan utandığından başını aşağı saldı. Ta bundan sonra onun bir dəfə də olsun dərsə hazırlıqsız gəldiyini görmədik.

Artıq yuxarı siniflərdə oxuyurduq. Sinfimizdə bir qız çox kilolu idi. Həmişə də əyninə gen-geniş ətək, köynək geyinirdi. Bir dəfə yenə sinif rəhbərimizlə söhbət edirdik. Müəllim o qıza məsləhət gördü ki, həmişə əyninə görə paltar geyinsin, bu gen paltarlar onu daha da kilolu göstərir.

İndi həmin günlərə qayıdıb bütün olanları, hansı ki, söylədiklərim olanların çox az bir hissəsidir, yada salanda həqiqətən özümüzü müəllimlərimizə borclu hesab etməyə bilmirik. Onlar bizə tək elmin sirlərini deyil, həyatın sirlərini, insanlığı, insanpərvərliyi, vətənpərvərliyi, böyüyə-kiçiyə hörmət hissini, harada özümüzü necə aparmağın lazım olduğunu aşılayıb. Bu səbəbdəndir ki, onları hər zaman böyük hörmət və sayğı ilə anırıq, harada görsək elə bil valideynimizi görürmüş kimi ülvi hisslər keçiririk.

Müəllimlər şagirdləri öz övladları kimi görmür, yoxsa şagirdlər müəllimlərin onların ikinci valideyni olmasını istəmirlər? Yoxsa valideynlər öz missiyalarını məktəb saatlarında müəllimlərə etibar etmirlər? Hansıdır, görəsən?

Həm şagird, həm müəllim, həm valideynlərlə apardığımız söhbət əsnasında məlum olur ki, hər üç subyekt bu münasibətlərin ”müasirləşməsində” böyük rol oynayır. Düzdür, indi danışacaqlarımız bütün valideynlərə, şagirdlərə, müəllimlərə aid deyil. Lakin çox təəssüf ki, onlar arasında bələləri var. İndi bəzi müəllimlər uşaqlardan, uşaqlar və valideynlər isə müəllimlərdən gileylidir. Nə üçün? Bunun üçün kiçik bir araşdırma apardıq. Məsələn, müəllim deyir ki, indiki dövrdə uşağa, o yana çəkil, demək olmur. Valideyn məktəbə gəlir, sənlə sanki üsyana başlayır.

Valideyn deyir ki, müəllim mənim uşağıma dərs deyə bilər, ona hirslənə, tənbeh edə bilməz. Bax elə problem də buradan başlanır. Deməli, günün yarıdan çoxunu məktəbdə olan şagird hər hansı bir səhv hərəkət edirsə, səhv söz danışırsa, müəllim onun bu hərəkətinə göz yummalı, danışdığı sözü qulaqardına vurmalıdır? Onda, əziz valideyn, sən bu uşağın gələcəyindən heç nə gözləmə. Məsələ aydındır, düşünürəm ki, əlavə izaha ehtiyac yoxdur.

Lakin onu vurğulamaq istəyirəm ki, bu cür düşünmək heç də düzgün deyil. Çünki istər, ev, istər məktəb olsun, səhv hərəkətin qarşısı dərhal alınmayanda bu, növbəti səhvə yol açır. Belə isə nə üçün müəllim uşağı tənbeh edə bilməz? Axı bu tərbiyə prosesində həm də valideynə köməklikdir. Bir də axı valideyn övladını olduğu kimi tanıya bilmir. Lakin müəllim onun uşaqlar arasındakı hərəkətlərini daha yaxşı görür və əgər qarşısı alınmazsa, bu, onun xarakterinə elə bir formada çökür ki, sonra onu tərbiyə etmək çətinləşir.

Hər bir uşaq arxayın olanda ki, müəllim onun hansısa bir səhv hərəkətinə göz yumacaq, görün bunun sonu nə ilə nəticələnə bilər. Belə çıxır ki, uşağın etdiyi səhvlər cavabsız qalır. Valideyn deyir ki, uşağımın səhvlərini deyin, mən özüm tənbeh edim. Bəli, bu da doğru fikirdir. Lakin ikitərəfli tənbeh daha təsirli deyilmi? Biri var, dərhal müdaxilə, biri də var, bir neçə saatdan sonra müdaxilə. Bir də ki, biz uşağımızı müəllimələrə saatlarla etibar ediriksə, nə üçün onun tərbiyəsinə nəzarəti də onun öhdəsinə verməyək?

Tədris və təlim-tərbiyə yanaşı olanda...

Cəmiyyətə o zaman yaxşı yetişdirilmiş gənc vermək olar ki, məktəblərdə tədrislə təlim-tərbiyə birgə həyata keçirilsin. Uzun illər bu, belə də olub. Yəni, məntiqlə də fikirləşəndə istər təhsil aldığımız, istər çalışdığımız müəssisələrdə təlim-tərbiyə qaydalarına riayət etmək hər kəsin borcudur. Məktəbdə isə bu, vacibdir. Baxmayaraq ki, indi uşaq bir səhv hərəkət edəndə və müəllim onu tənbeh edəndə bəzi valideynlər var ki, səsləri sosial şəbəkələrdən gəlir, lakin belə deyil. Hər kəs borcludur ki, məktəbin qaydaqanunlarına tabe olsun. Biz nə qədər ki, övladlarımızın başına tumar çəkirik, nə qədər boş yerə onları müdafiə ediriksə, inanın, bunun yaxşı nəticəsi olmayacaq.

Nə üçün öz məktəb illərimizin təcrübəsindən istifadə etmirik? Axı hər birimiz o dövrdə təhsil almışıq, müəllim-şagird münasibətlərinin nəticələrindən bəhrələnmişik. Belə olan təqdirdə nə üçün bu metodun əleyhinə çıxırıq? Bizi, bəli, bu sosial şəbəkələr, internet aləmi bu günlərə gətirib çıxarıb. Orada gördüklərimiz, oxuduqlarımız bizdə bu fikirləri formalaşdırıb. Lakin orada gördüklərimiz bizi milli dəyərlərimizdən qoparmaq üçün şüurlarımıza yeridilənlərdir. Biz nə edirik? Onlari rədd edib, öz yolumuzla getmək əvəzinə, cəmiyyətimizə, həyat tərzimizə uyğun olmayanların ardınca gedir, onları həyatımıza daxil edirik. Lakin bu, heç yaxşı hal deyil və bu barədə əməlli-başlı düşünmək gərəkdir.

Müəllim-şagird münasibətlərinin bir tərəfindən-yəni valideynlərlə bağlı tərəfindən danışdıq. İndi isə bir qədər də müəllimlərə aid tərəfindən danışaq. Bəli, bu gün məktəblərimizdə müəllimlər var ki, valideynlər onlar haqqında güleylənməkdə haqlıdırlar. Bu cür müəllimlərdir müəllim-şagird-valideyn üçbucağına xələl gətirənlər.

Ümumiyyətlə, düşünürəm ki, müəllim hər zaman özünü bu ada layiq aparmalı, ona hörmətlə yanaşmalı, heç bir təqdirdə bu ada xələl gətirməməlidir. Yəni səhv etmiş bir uşağa elə bir tərzdə yanaşılmalıdır ki, onun şəxsiyyətinə xələl gəlməsin, uşaqların içərisində pis vəziyyətə düşməsin. Belə olanda təbii ki, uşaq da müəllimə cavab qaytarır. Və müəllim düşünür ki, mən nə desəm olar, lakin uşaq mənə cavab verməməlidir. Lakin bax burada səhvik. Çünki xarakterlər, xasiyyətlər bir-birinə bənzəmir. Müəllim hər xarakterdə uşaqla qarşılaşa bilir və onların hamısı ilə eyni rəftar edə bilmir.

Valideynlərdən biri deyir ki, övladının təhsil aldığı orta məktəbin sanitar qovşağında yuxarı sinif şagirdləri siqaret çəkib. Övladı da həmin vaxt oraya getdiyi üçün sinif rəhbəri ondan həmin uşaqların kim olduğunu öyrənməyə çalışıb. Lakin uşaq məlumat vermək istəməyib. Belə olanda müəllim uşağı sinifdən çıxarıb. Bu faktla bağlı düşünürəm ki, burada, bəli, günah müəllimdədir. Birincisi, heç bir məsələ ilə əlaqədar şagirdi dərs prosesindən ayırmaq olmaz. İkincisi, gördüyü nə isə haqda danışmaq istəməyən şagirdi zorla danışmağa vadar etmək olmaz. Yaxşı olar ki, növbətçi müəllimlər məktəbə nəzarəti gücləndirsinlər və nə baş verdiyini özləri aşkar etsinlər. Yuxarı sinif şagirdləri ilə aşağı sinif şagirdini qarşı-qarşıya qoymaq heç də düzgün hal deyil.

Müasir dövrümüzdə müəllimlər var ki, şagirdi adi səhvi üçün bütün uşaqların içərisində təhqir edir. Belə olanda isə təbii ki, valideyn də işə qarışır və müəllimdən uşağına qarşı doğru hərəkət etməsini tələb edir. Beləliklə, münasibətlər korlanır, tədrislə təlim-tərbiyənin birgə həyata keçirilməsinə maneçilik yaradır.

Bəs bu münasibətlərin qorunması üçün nə etməli?

Yaxşı olar ki, yuxarıda da qeyd etdiyim kimi, müəllim "müəllim" adına böyük ehtiramla yanaşsın. Valideyn də boş yerə övladını müdafiə etməsin. Uşaq məktəbdə-dərs prosesində hansı bir səhvə yol verirsə, onu müəllim-valideyn eyni dərəcədə qınayarsa, bəli, bunun gözəl nəticəsi ola bilər. Yox, əgər, müəllim bunun valideyni gəlib şikayət edər, məni işdən çıxararlar deyirsə, yəni valideynlər buna şərait yaradırlarsa, onda özlərindən küssünlər. Övladlarının da xoşbəxt gələcəyi haqda fikirləşməsinlər.

Məktəb tək tədrisi yerinə yetirərsə, övladlarımız kor olar. O mənada ki, əxlaqı yerində olmayan təhsilli insan kimin nəyinə gərəkdir. Bizim cəmiyyətimizə verə biləcəyimiz ən layiqli övlad təhsili ilə yanaşı, tərbiyəsi və əxlaqı gözəl olan gənclərdir. Buna isə yalnız məktəblərdə nail ola bilərik.

Bəzi müəllimlərin də məktəblərdə necə deyərlər, hegomonluq etməsi, bəzi valideynlərin də məktəblərə hücum çəkməsi, övladının səhvinə görə məktəb kollektivini günahlandırması haqqında onlarla faktımız var. Bütün bu faktlara nəzər salanda, analiz edəndə isə belə qənaətə gəlmək olar ki, çox gözəl ənənələr üzərində qurulan təhsil ocaqlarımızı bir neçə müəllim və valideynin səhv addımları, danışıqları, hərəkətləri ilə günahlandırmaq olmaz. Biz çalışmalıyıq ki, ictimai qınaqla həmin müəllimlərə də, valideynlərə də səhv etdiklərini anladaq. Bunu bacararıqsa, gələcəyimiz olan uşaqlarımızı xilas etmiş olarıq. Bunu bacararıqsa, yuxarıda da haqqında danışdığım gözəl müəllim-şagird münasibətlərini davam etdirə bilərik.

Valideynlər yaxşı-yaxşı fikirləşməlidir. Sosial şəbəkələrdə diktə olunanlara ağıllarını verməməlidir. Bizim xalqın milli dəyərləri var, bunu sosial şəbəkələrdə gördükləri ilə qarışdırmasınlar. Olar ki, hansısa bir xarici ölkədə uşağı özbaşına buraxarlar. Deyərlər ki, məktəbdə istənilən hərəkətinə görə ona heç kim bir kəlmə söz deyə bilməz. Lakin inanın ki, belə bir ölkə ola bilməz. Bütün bu barədə gördüklərimiz yalan, hansısa bir xalqın mentalitetini darmadağın etmək üçün uydurulan, beyinlərə axıdılan vasitələrdir.

Övladımız hansı məktəbdə təhsil alırsa, ora onun ikinci evi, müəllimlər isə ikinci valideynləridir. Biz bunu nə qədər ki, bu cür qəbul edirik, cəmiyyətə də layiqli vətəndaşlar verə biləcəyik. Nə qədər ki, müəllim öz peşəsinə, müəllim adına hörmətlə yanaşırsa, məktəblərdə tədrislə yanaşı, təlim-tərbiyə də yüksək səviyyədə olacaqdır. Biz bunlara nail olmağa, olanlarımızı qorumağa çalışmalıyıq. Əks təqdirdə isə dediklərimizin bir neçə ildən sonra nə qədər doğru olduğunu hər kəs görəcəkdir.

Mətanət Məmmədova

Ramin Rzayev - Bizi yıxılmağa qoymayan həkim

Bizi həyata Ulu yaradan gətirib, olumdan ölümə taleyimizi də Uca Tanrı yazıb. Bizə verilən ömrü həkimlər qoruyur. Bu baxımdan həkimlik, sadəcə, bir peşə deyil, İlahinin ən yaxın yardımçısı olmaqdır. Tək Allahımız alın yazımızın yarımçıq pozulmamasını həkimlərə həvalə edib.

Elə biz özümüz də ən qiymətli sərvətimiz olan həyatımızı "ağ xalatlı şəfqət mələkləri"nə etibar etmişik. Son ümid qapısı saydığımız tibb işçiləri həyat keşikçiləri kimi ömrümüzə xoşbəxtlik, ahəng qatıblar. Buna görə də həmişə həkimlər seçiliblər, seviliblər. Onlara ən böyük hədiyyəmiz minnətdarlığımız, dualarımız olub. Müdriklərin dediyi kimi, həkimlər öz xoşbəxtliklərini başqalarına qazandırdıqları xoşbəxtlikdə tapırlar. Bu, onların xoşbəxtlər xoşbəxti olması deməkdir.

Taleyinə belə müqəddəs missiya düşmüş, alnına belə bir xoşbəxtlik yazılmış tibb üzrə fəlsəfə doktoru, Mərkəzi Gömrük Hospitalının travmatologiya və ortopediya şöbəsinin rəisi Ramin Rzayev həkim kimi müqəddəs amallar uğrunda yorulmadan mübarizə apara-apara özü müqəddəsləşdi. İllərdən bəri dayaq-hərəkət problemi olan insanları ayağa qaldırıb onları fəal həyata qoşmaqla xalqımıza layiqli xidmət göstərmiş bu təbib fəaliyyəti ilə həkimlik peşəsinə şərəf gətirib. Bu yerdə antik dövrün bir hikmətli pritçası yada düşür. Kral Dionis Aristoteldən soruşur ki, görəsən, niyə hər gün filosoflar hökmdarların ziyarətinə gedir, heç bir hökmdar yerindən qalxıb bir filosofun ziyarətinə getmir? Aristotel suala özünəməxsus, dahiyanə cavab verir: "Yataqdan qalxa bilməyən xəstələrin yanına həkimlər özləri gedərlər. Belə xəstələrin isə onların yanına getməsi mümkün deyil!".

Hökmdarı yataq xəstəsinə bənzədən Aristotel bu müqayisədə həkimləri filosoflara bərabər tutur. Bu hikmətə söykənsək, həkimliyin fəlsəfəsi Tanrının verdiyi ömrün qorunmasındadırsa, həkimin filosofluğu belə bir ilahi missiyaya qulluq etməsindədir. Həkimlər bənimizin və ruhumuzun sirlərini bilən, onun fəsadlarını incələyib aradan qaldıran hikmət sahibləridir.

Amma Ramin Rzayev təbabətin insanı ayaqda saxlayan, yıxılmağa qoymayan sahəsinin hikmətlərini, sirlərini dərindən bilib xəstəliklərə əlac edən, xəstələrə nicat verən bir travmatoloq-həkimdir. Ağrıdan taqətsiz hala düşən qamətimizi yenidən dikəltmək, yerişimizi bərpa etmək kimi mürəkkəb əməliyyatları icra etməklə yıxılan xəstələri ayağa qaldırır, onlara həyat eşqi bəxş edir. İllərdən bəri xalqımızın sağlamlığının keşiyində ləyaqətlə dayanan Ramin Rzayev xəstələrə təkcə şəfa deyil, eyni zamanda inam da verir. Yüksək tibb təhsili və zəngin iş təcrübəsi olan Ramin həkim ölkəmizin ən yaxşı həkim-cərrahlarından biri kimi tanıdır.

O əvvəlcə Azərbaycan Tibb Universitetini bitirib, sonra akademik İ.Pavlov adına Sankt-Peterburq Dövlət Tibb Universitetinin internatura, ordinatura və aspirantura pilləsini uğurla başa vurub. Bir müddət Sankt-Peterburqda Canelidze adına Təcili Yardım Elmi Tədqiqat İnstitutunun travmatologiya-ortopediya bölməsində çalışıb. 2011-ci ildən isə Vətənə dəvət alaraq Mərkəzi Gömrük Hospitalında həkim travmatoloq-ortoped kimi fəaliyyət göstərir. Hazırda travmatologiya şöbəsinin rəisidir. Ramin həkim Rusiya Federasiyası Dövlət İxtiraçılar reyestrində qeydiyyatdan keçmiş "Eksternal osteosintez zamanı sümüyün xarici fiksasiya aparatına birləşdirmə üsulu" adlı 2354320 saylı və "Çanağın ön və arxa şöbələrinin bütövlüyünün pozulması ilə müşayiət olunan zədələnmələrinin müalicə üsulu" adlı 2364359 saylı patentlərin həmmüəllifidir. O, "Travmatik şokla müşayiət olunan xəstələrdə həlqəsinin tamlığı pozulmuş çanağın zədələnmələrinin müasir üsullarla müalicəsi" mövzusunda elmi işinə görə də 2 patent almışdır. Mütəxəssislər bu uğuru tibb elminin bu sahəsində hadisə kimi qiymətləndiriblər.

Peşəkar həkim olan Ramin Rzayev həm də vətənpərvər, xeyirxah, humanist bir insandır. O, dünyanın şöhrətli xəstəxanalarında işləməyi deyil, ölkəmizdə çalışmağı üstün tutub və fəaliyyətini Vətəndə davam etdirir. Ölkəmizdə tibbin travmatologiya-ortopediya sahəsinin inkişafında onun elmi və təcrübi fəaliyyəti yüksək nəticələrlə müşayiət olunur. Bilik və bacarığı ilə cəmiyyətimiz üçün faydalı olan və sağlam həyat naminə yorulmadan çalışan Ramin Rzayevin həkim, vətəndaş kimi fəaliyyəti gənc tibb işçiləri üçün örnəkdir. Tanınmış travmatoloq-cərrahın elmi nailiyyətləri və milli səhiyyəmizin inkişafındakı sanballı xidmətləri onu tanıyanlarda hədsiz rəğbət doğurur, bu insana hörmət qazandırır. Ramin həkimin parlaq istedadı, yüksək insani keyfiyyətləri, müqəddəs fəaliyyəti şəfa verib həyata qaytardığı çoxsaylı insanda heyranlıq yaradır. Əminəm ki, Ramin həkimin bundan sonrakı fəaliyyəti də yeni-yeni nailiyyətlərlə müşaiyət olunacaq.

Dilarə Zamanova,
Mərkəzi Gömrük Hospitalının
PR üzrə mütəxəssisi

"İnsanların ekoloji şüuru artırılmalıdır"

EKOLOQ DANIŞDI

"Bakı şəhərində və Azərbaycanın müxtəlif rayon və bölgələrində tullantıların yığılması ilə bağlı doğrudan da ciddi problemlər mövcuddur. Bakı şəhərində bu problemlər müəyyən qədər aradan qaldırılsa da, hələ də şəhər ətrafı qəsəbələrdə və kəndlərdə vəziyyət eyni qalır". Bu sözləri SİA-ya açıqlamasında Səma və Ekososial-İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova deyib. Onun sözlərinə görə, məsələn, Balaxanıda bərk məişət tullantılarının idarə olunması ilə bağlı bir zavod tikilib. Bu zavodda tullantılar çeşidlənir və yenidən istehsala cəlb olunur. Lakin bu cür infrastruktur yalnız Bakı ərazisində fəaliyyət göstərir. Biz hər il bir ekoloji təşkilat olaraq təmizlik aksiyaları keçiririk. Bu təşəbbüsləri xüsusilə rayon və bölgələrdə həyata keçirməyə çalışırıq. Təəssüf ki, bəzi hallarda bu aksiyalar zamanı yerli sakinlər bizə qəribə münasibət göstərirlər.

Digər tərəfdən, rayon və bölgələrdə tullantıların təmizlənməsi üçün ilk növbədə bələdiyyələr və icra orqanları ilə davamlı əməkdaşlıq aparılmalıdır. Harada ki məmurlar məsuliyyətlidirlər və işlərinə ciddi yanaşırlar, həmin ərazilərdə zibilliklərin qarşısı alınır. Bu baxımdan, bizim əsas məqsədimiz bələdiyyələr və icra nümayəndələri ilə birgə işləmək, onları maarifləndirmək və bu məsələyə daim diqqət yetirmələrinə nail olmaqdır. Gəncə şəhərində də tullantıların yığılması və idarə olunması ciddi problemdir. Bu məsələ ilə bağlı Balaxanı zavodunda çıxış edərkən təklif etdim ki, oxşar zavodlar Gəncə, eləcə də ölkənin digər bölgələri - məsələn, cənub və şimal zonalarında da tikilsin. Belə zavodların yaradılması tullantıların effektiv idarə olunmasına şərait yaradacaq, zibillərin vaxtında daşınmasını təmin edəcək və ətraf mühitin çirklənməsinin qarşısını alacaq.

Hazırda kənd yerlərində tullantıların atılması üçün xüsusi yerlər olmadığı üçün insanlar məcbur qalıb zibilləri yandırırlar. Bu isə havanın çirklənməsinə və müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Düzdür, artıq Azərbaycanda bu sahəyə diqqət artırılıb. Qarabağda da yol kənarlarında tullantılar üçün poliqonlar yaradılıb və onların daşınması ilə bağlı tədbirlər nəzərdə tutulub. Lakin bu məsələdə insanların öz üzərinə düşən məsuliyyəti dərk etməsi vacibdir. Məsələn, Bakı şəhərində müxtəlif tullantı növləri - karton, plastik və s. üçün ayrıca qutular qoyulub. Amma insanlar plastik üçün nəzərdə tutulan qutuya karton və ya digər tullantılar atırlar. Bu isə çeşidlənmənin effektivliyini azaldır.

Avropa ölkələrində isə əhali tullantıların düzgün çeşidlənməsinə xüsusi diqqət yetirir. Əgər vətəndaş düzgün çeşidləmə aparmasa, cərimələnir. Bu səbəbdən orada insanlar qaydalara əməl edirlər. Bizim cəmiyyətimizdə isə hələ də bu sahədə problemlər qalmaqdadır. Ona görə də ilk növbədə hər bir vətəndaş məsuliyyətli olmalı, tullantıların düzgün idarə olunmasına diqqət yetirməlidir. Məişət tullantılarının idarə olunması ilə bağlı daha çox tədbir və layihələrin keçirilməsi məqsədəuyğundur" - deyə o əlavə edib.

Günel Fərzəliyeva

Su altındakı həyat təhlükədədir

Bataqlıqlar Avropanın təhlükə altında olan ən vacib ekosistemlərindən biridir. Bataqlıqlar, su və torpaq kimi yaşayış yerlərinin görüşmə nöqtəsi kimi mühüm rol oynayır. Yaşamaq üçün bataqlığa ehtiyacı olan və təhlükə altında olan canlılar var. Avropa 1900-1980-ci illərin ortaları arasında torpaq drenajı səbəbindən bataqlıq ərazilərinin üçdə ikisini itirdi. Bu gün bataqlıqlar Aİ ərazisinin 2%-ni təşkil edir. Aİ-də bir çox su-bataqlıq yaşayış mühiti növləri qorunsa da, mühafizə statusunun qiymətləndirilməsi göstərir ki, bu yaşayış mühiti növlərinin 85%-i mənfi vəziyyətdə, 34%-i orta vəziyyətdə və 51%-i isə çox pis vəziyyətdədir.

Avropanın dənizləri müxtəlif dəniz orqanizmləri və ekosistemlərinə ev sahibliyi edir. Bunlar həm də vacib qida, xammal və enerji mənbələridir. Avropa dənizlərinin vəziyyəti haqqında hesabatlar göstərir ki, dəniz biomüxtəlifliyi hər gün daha da pisləşir. Üstəlik, dəniz biomüxtəlifliyi qeyri-adekvat olaraq qiymətləndirilir, növlər üzrə təyinatlar apararkən hər beş növdən dördü "naməlum canlı" kimi təsnif edilir. Dəniz Strategiyasının Çərçivə Direktivinə əsasən yaşayış mühitinin qiymətləndirilməsi mənfi vəziyyətin əsas səbəblə-

Çaylarda və göllərdə yaşayan canlılardan tutmuş bataqlıq ərazilərdə, dənizlərdə yaşayan bir çox canlıların həyatda qala bilməsi üçün su vacibdir. İnsanlar üçün su ehtiyatları təkcə sağlamlıq, qida, gəlir və enerji mənbəyi deyil, həm də vacib nəqliyyat marşrutları və istirahət məkanları üçün də əhəmiyyətlidir.

Yüz illərdir insanlar Avropanın su ehtiyatlarını qida məhsulları yetişdirmək, enerji istehsal etmək üçün istifadə edirlər. Avropanın iqtisadi və sosial inkişafının mərkəzində olan bu fəaliyyətlər suyun keyfiyyətinə, xüsusən də çaylara, təbii balıqların məskunlaşdığı ərazilərə və digər su canlılarına da ziyan vurub. Təəssüf ki, su bir çox hallarda atdığımız çirkab havaya, torpağa və suya qarışır, tullantılarımızın və kimyəvi maddələrimizin son dayanacağı elə su hövzələri olur.

Bir sözlə, suyun faydalarından istifadə etməkdə son dərəcə bacarıqlı olsaq da, bu, təbii mühitə və iqtisadiyyata baha başa gəldi. İndi bir çox su ekosistemləri və növləri təhlükə altındadır, çox növdə balıq populyasiyası azalıb, sahil eroziyası artmaqdadır. Nəticədə, bütün bu dəyişikliklər su ehtiyatlarını və onun sakinlərini ciddi formada təhlükə altına salır.

Çirklənmə, bütün dünyada olduğu kimi, Avropada şirin su ehtiyatlarına ziyan vurmağa davam edir. Bunun da nəticəsində su ekosistemləri, biomüxtəliflik itirilir, insanların sudan əldə etdiyi faydaları təhlükə altına alır. Yerüstü su ehtiyatları ilə bağlı əsas problemlərə kənd təsərrüfatının qida maddələrinin həddindən artıq çirklənməsi, havadan kimyəvi çirklənmə halları da daxildir.

İntensiv kənd təsərrüfatı, məhsuldarlığını artırmaq üçün kimyəvi gübrələrə ehtiyac duyur. Azot, təbiətdə bitkilərin inkişafı üçün zəruri olan bol kimyəvi elementdir. Lakin əkin üçün istifadə edilən azotun bir hissəsi bitkilərə getmir, torpaqda yığılıb qalır. Bunun bir sıra səbəbləri ola bilər, məsələn tətbiq olunan gübrə miqdarının bitkinin udduğundan çox olması və ya bitkinin böyümə dövründə tətbiq olunmaması. Artıq azot torpağa qarışaraq dolayı yolla su mənbələrinə nüfuz edə bilir.

Torpaqda yetişdirilən bitkilərə təsiri kimi, suda çox miqdarda azot yığılarsa müəyyən su bitkilərinin və yosunların həddindən çox böyüməsini artırır və bu, evtrofikasiya kimi tanınan bir prosesdir. Bu əlavə böyümə isə sudakı oksigeni istehlak edir və o su mənbəyində yaşayan digər canlılara zərər verir. Ancaq suya qarışan azot təkcə kənd təsərrüfatından deyil, sənaye obyektləri və ya dizel mühərrikli nəqliyyat vasitələri də atmosferə əhəmiyyətli miqdarda azotlu birləşmələr buraxa bilər və sonra bu birləşmələr torpaq və su səthlərində toplanır. Ağır metallar heyvanlarda və insanlarda öyrənmə, davranış və reproduktiv problemlər yaradır. Son illərdə antibiotiklər və antidepresanlar kimi əczaçılıq məhsullarının suda yaratdığı çirklənmə artıb, bunun su canlılarının hormonlarına və davranışlarına təsir etdiyi müəyyən edilib.

Avropa İttifaqına üzv dövlətlərin çirklənmə mənbələri ilə mübarizə, təbii yaşayış yerlərinin bərpası və bəndlərdə balıqlar üçün keçid yollarının yaradılması səylərinə baxmayaraq, son on ildə su ehtiyatlarının vəziyyəti yaxşılaşmayıb. Avropa çaylarında tikilən xeyli sayda bənd və su anbarlarını nəzərə alsaq, görülən tədbirlərin miqyası əhəmiyyətli irəliləyiş əldə etmək üçün yetərli olmaya bilər. O da mümkündür ki, biz bu tədbirlərin bəzilərinin yalnız uzunmüddətli perspektivdə nəzərəçarpacaq nəticələrini görə bilək, hazırda bir nəticə görməməyimiz də bununla bağlı ola bilər.

ri arasındadır. Yəni vəziyyət həm də doğru qiymətləndirilmədiyi üçün canlılar təhlükə altındadır. Bütün bu səbəblərin nəticəsində də Baltik dənizi, Atlantik Okeanı şimal-şərqi, Aralıq dənizi və Qara dəniz əsaslı dəyişikliklərə məruz qaldı. Biomüxtəlifliyin itirilməsi bütün dəniz ekosisteminə və onun təmin etdiyi faydalara mənfi təsir göstərdi.

Avropa dənizlərinə köç edən ekzotik canlılar dəniz biomüxtəlifliyi üçün daha bir böyük təhlükə yaradır. Ekzotik növlərin populyasiyaları sürətlə artaraq dənizləri istila edir, bu da təbii ki yerli növlərin zərərinədir. İstilaçı ekzotik canlılar hətta bəzi balıq populyasiyalarının qarşısını alır. Bu böyük çətinliklərə baxmayaraq, dəniz ekosistemləri indiyədək dözümlülüyünü qoruyur. Nə qədər qoruya biləcək, bu sual altındadır.

Bütün təhlükələrin fərqində olan Avropa İttifaqının su siyasətinin əsas məqsədi, insanların və ətraf mühitin ehtiyaclarını ödəmək üçün kifayət edəcək miqdarda keyfiyyətli suyun mövcudluğunu təmin etmək olub. Əksi mümkün deyil, çünki su təhlükə altında qalmağa davam edəcəksə insanların və digər canlıların da həyatı ilə bağlı ciddi təhlükələr meydana gələcək. Bunu isə, heç kim arzulamır.

Lalə Mehralı

Kaş insanlıq da dəb olaydı

Lalə Mehralı

Nitşe deyir ki, insanlar bir-birini parçalamamaq üçün əxlaq anlayışını yaradıb, amma əslində, ən vəhşi canlı elə insandır. Doğrudur, biz danışırıq, düşünürük, heyvanlarla bizi fərqləndirən də məhz bu iki təməl özəlliyimizdir. Əslində, heyvanlar da düşünür, bəs onları insanlardan fərqləndirən nədir? Niyə onların haqqında danışanda vəhşi olduqlarını gözə soxuruq, insanların haqqında danışanda isə ən yaxşı cəhətlərini vurğulayırıq, öz etdiklərimizin qarşısından pərdə asırıq.

İnsan yeganə məxluqdur ki, öz növünə - başqa insanlara zərər yetirir. Bununla da kifayətlənmir, digər canlılara, dünyaya və kainata zərər verir. Biz ekoloji sistemə xeyirdən çox ziyan vururuq, başqalarının haqını, hüququnu pozur öz mənfəətimizi düşünürük. Bütün kainatın bizim üçün yaradıldığına əminik, özümüzü bütün canlılardan üstün sayırıq, dünyanın ağası kimi davranırıq. Biz insanlar, öz maraqlarımız naminə bütün canlıları görməzdən gələ bilirik. Doğrudur, biz yer üzündəki bütün canlılar arasında ən sistemli həyat forması yaşayırıq, amma bu o demək deyil ki digər canlılar ağılsızdır və yaşamaq haqları yoxdur. Biz zəkalıyıq, doğrudur, amma eyni zamanda yaşamaq üçün öldürən və daha çox öldürmək üçün yeni yollar axtaran vəhşi varlıqlara çevrilmişik.

Bir çoxumuzun içində sevgi olsa da, bəzilərimiz o sevgini boğub, qəzəbə, nifrətə çevirir. Kimimiz sevgi ilə hər şeyin öhdəsindən gələ biləcəyini düşünür, kimimiz bütün aqressiyamızı başqasına yönəldərək zorakılıq tətbiq edir. Biz məğlubiyyəti qəbul edən kimi görünürük, əslində içimizdə əks hücuma hazırlaşan canavar yatır.

Biz kürkü, dərisi, dişi, buynuzu üçün başqa canlıları qətl edə bilirik, marka bir ayaqqabı, yumşaq tükləri olan bir palto, bərq vuran bir çanta üçün günahsız canlıları qanına qəltan edirik. Bəlkə də kürkdən istifadə edən insanların çoxu xəz heyvanların məruz qaldığı şiddəti, ağlasığmaz işgəncələri və həyat şəraitini əvvəllər bilməyə bilərdi, lakin informasiya əsrində bunu bilməmək mümkün deyil. Amma fikirləşirəm, heyvanların kürkünü əlindən almaq üçün onlara yaşadılan qəddarlığı bilsə, kürkdən uzaq durmaq bir yana, bu biznesə nifrət edən nə qədər həqiqi insan var dünyada?

Buğa döyüşünü düşünün. Nə qədər qəddar görünür o meydanda buğalar, elə deyil? Amma onu o həddə gətirən insandır. Döyüşdən əvvəl öküzün qulaqlarına yaş qəzetlər doldurulur, görmə keyfiyyətini bulanıqlaşdırmaq üçün gözlərinə vazelin sürtülür, nəfəs almasını çətinləşdirmək üçün burun dəliyinə pambıq basılır və cinsiyyət orqanına iynə yerləşdirilir. Təsəvvür edirsiniz? Bədən tarazlığını itirməsi üçün ayaqlarına yandırıcı maddə sürtürlər. Döyüş günü çaşqınlıq yaşasın deyə bir neçə gün əvvəldən dar, qaranlıq yerdə saxlayırlar.

Döyüş günü o buğalar meydanda niyə elə sürətlə qaçır, bilirsiniz? Çünki həmin an dar və qaranlıq yerdən çıxarılıb, gözünə sürtülən vazelinə görə işığı bulanıq gördüyü üçün aydınlığa çatmaq üçün durmadan qaçır, bu yolda maneə olsa işığa çata bilmək üçün o maneəni əzməyə hazırdır. Ayaqlarındakı yanma hissi, cinsi orqanındakı iynə ona dəhşətli ağrı verir. Üstəlik, meydanda onu əsəbləşdirmək üçün insanlar əllərindən gələni edir, ona ağacla, dəyənəklə, qamçı ilə, qılınc ilə xətər yetirirlər. Hər zərbədə o daha da acıqlanır, daha çox hücum edir. Yaralanır, qanı azaldıqca qüvvəsi tükənir, ya elə meydanda ölür, ya da sonra öldürülür. Bütün bunlardan sonra o insanlar əyləncəli gün keçirmişcəsinə evlərinə dağılırlar. İndi kimdir vəhşi?

Ətrafımızdakı yaşıllığı qətl edib beton konstruksiyalar quraşdıranlar, insanlığı o daş divaralara həbs edənlər, heyvanlara işgəncə verənlər, gücünü zəifə göstərənlər, körpələrə təcavüz edənlər - hamısı insandır, hamısı bizdəndir. Heç bir vəhşi heyvan insan qədər qəddar deyil, elə deyilmi? Hər şeyə ayaq uyduran, hər yenilikdən nəsib alan insanlar niyə insanlığı dəb etmir, yaymır, təbliğ etmir? Axın dünyanın ehtiyacı olan ən böyük dəyişiklik, ən lazımlı yenilik insanlığın dəbə minməsidir.

Bəşəriyyətin, insanların və heyvanların rəhmə, insafa, mərhəmətə ehtiyacı var. Bəşəri mərhəmət, qlobal əxlaq bərpa edilmədikcə dünya çox müharibə görəcək, hələ çox qanlar töküləcək. İnsanlar arasında gedən müharibələrin kökündə dilsiz-ağızsız heyvanlara edilən işgəncələr dayanır çünki. Dünyanın səməsi o heyvanların ah-naləsi ilə əks-səda verir.

Dost ölkələr, strateji tərəfdaşlar

Azərbaycan-Macarıstan əlaqələri iki ölkə arasında münasibətlərin qurulduğu tarixdən etibarən daim yüksələn xətlə inkişaf edir. Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə münasibətlərində Macarıstanla əməkdaşlıq xüsusi yer tutur.

Mönsüm ALIŞOV
Pedaqoji elmlər doktoru, professor

Tarixin bir çox mərhələsində Macarıstan Azərbaycanla siyasi, elmi-mədəni proseslərdə ortaq mövqe sərgiləyərək etibarlı dost kimi sadiqliyini nümayiş etdirib. Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin Macarıstanla əməkdaşlığa xüsusi önəm verməsi, diplomatik münasibətlərin yaxın tərəfdaşlıq ruhunda inkişaf etdirilməsi rəsmi Budapeşti etibarlı müttəfiqə çevirib.

Hər zaman müstəqillik və suverenlik prinsiplərindən çıxış edən ölkələrimiz müxtəlif sahələrdə uğurla əməkdaşlıq edirlər. Azərbaycanla Macarıstanın münasibətləri isə həm dövlət maraqlarına, həm cəmiyyətlərin qarşılıqlı rəğbətinə, həm də tarixə bağlıdır. Türk kökənliyi iki ölkəni və xalqı bir araya gətirən ən etibarlı bağdır. Azərbaycan getdikcə qlobal güc mərkəzlərindən birinə çevrilməkdə olan Türk Dövlətləri Təşkilatının (TDT) əsasının qoyulmasında mühüm rol oynayan dövlətlərdən biridir və hazırda da qurumun funksionallığının artmasına sanballı töhfələr verir. Cənab İlham Əliyevin Macarıstana davamlı xarakter alan səfərləri, eləcə də, Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycana səfərləri əməkdaşlığın dinamikasını və siyasi ruhunu daha da gücləndirib, əsl dostluq platforması formalaşdırıb. Təsadüfi deyil ki, V.Orban Azərbaycanı öz doğma Vətəni adlandırır. Eləcə də Cənab İlham Əliyev Macarıstanı öz doğma evimiz hesab etdiyini bildirir. İlk dəfə olaraq Türk Dövlətləri Təşkilatının ikinci qeyri-rəsmi Zirvə görüşünün Macarıstanda keçirilməsi isə bu ölkənin Türk ailəsinin bir parçası, ayrılmaz tərəfdaşı olmasını göstərir. Bu təşkilata tamhüquqlu üzv olmasa da, Macarıstan Türk dövlətləri üçün eyni strateji dost və qardaş ölkədir, bütün məsələlərdə onlarla həmrəydir.

Macarıstanın bu ailədə öz layiqli yerini tutmasında, daha aktiv iştirakçıya çevrilməsində Azərbaycanın liderliyi isə diqqətdən qaça bilməz. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsinin təşəbbüskarı olan Azərbaycan ilk Zirvə toplantısını ötən il Şuşa şəhərində təşkil etməklə xoş ənənənin əsasını qoyub və bu mütərəqqi modeli Şərqi-Avropa regionuna gətirir. Prezident cənab İlham Əliyevin bəyan etdiyi kimi Şuşa Zirvəsindən sonra estafetin Macarıstana verilməsi alqışlanmalıdır. Bu, bir daha onu göstərir ki, Macarıstan öz milli ənənələrinə, tarixi köklərinə bağlı olan dövlət kimi Türk dünyasının, Azərbaycanın daimi sadiq tərəfdaşıdır, Şuşadan sonra mötəbər toplantının ona həvalə edilməsi də təsadüfi deyil.

Azərbaycan - Macarıstan münasibətləri qarşılıqlı hörmət, etimad və strateji maraqlara əsaslanır. İki ölkə arasında yüksəksəviyyəli səfərlər münasibətlərin inkişafına təkan verib. Azərbaycan ilə Macarıstan strateji dialoqu davam etdirmək, ticarət, investisiya, nəqliyyat, təhsil və humanitar sahələrdə əməkdaşlıq imkanlarını genişləndirmək niyyətindədir. Prezident cənab İlham Əliyevin mətbuata bəyanatla çıxışı zamanı dediyi kimi, bütün başqa məsələlərdə də biz iki dost və tərəfdaş ölkə kimi birgə fəaliyyət göstəririk. Azərbaycanla Macarıstan enerji sahəsində də fəal əməkdaşlıq edir. Macarıstan Azərbaycanı enerji sahəsində etibarlı və strateji tərəfdaş olaraq görür və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində ölkəmizin vacib rolunu yüksək qiymətləndirir. Azərbaycanın enerji potensialı, xüsusilə təbii qaz və bərpaolunan enerji sahələrindəki uğurları, Macarıstanın enerji təminatını şaxələndirmək məqsədilə ölkəmizin layihələrinə dəstəyini daha da artırır. Bu əməkdaşlıq, həmçinin Cənub Qaz Dəhlizi layihəsinin uğurlu həyata keçirilməsi ilə Avropa bazarlarına daha çox enerji təchizatının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı ölkəmizin Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə biləcəyini söyləyərək vurğulayıb:"Bizim qaz resurs bazamız kifayət qədər genişdir və genişlənir, yeni qaz yataqları istismara veriləcək. Biz bu gün 12 ölkəyə təbii qaz ixrac edirik. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Əgər biz qaz ixracının coğrafiyasına baxsaq, görərik ki, burada nəinki Avropa məkanında, dünya miqyasında boru xətti ilə nəql edilən qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir.

Bizim gələcəkdə qaz ehtiyatlarımızın işlənilməsi nəzərdə tutulur. Biz, eyni zamanda, Macarıstanla yaşıl enerji üzrə fəal işləyirik. Azərbaycanın çox böyükmiqyaslı yaşıl enerji gündəliyi vardır. Biz növbəti beş il ərzində 6 min meqavat gücündə yaşıl enerji istehsal edəcəyik. 500 meqavat son iki il ərzində yaradıldı, 6 min meqavat beş il ərzində təmin ediləcək.

Macarıstan davamlı olaraq Türk Dünyasının birgə layihələrində yaxından təmsil olunmaqla faktiki olaraq Türk dövlətlərinin ortaq maraqlarını ifadə edir, Türk Dövlətləri Təşkilatında (TDT) müşahidəçi üzv olmasına baxmayaraq, birgə layihələrdə təmsil olunub, özünü Türkdilli ölkələrin ailəsində hesab edərək regional layihələrdə iştirak edir. Türk dünyasının ortaq layihəsi olan Orta Dəhlizdə yer almaq üçün fəallığını artırır.

MƏTANƏT

Qadın, həyat yoldaşı, ana olmağa hazırsanmı?..

2024-cü ildə 18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı 1279 nəfər olub. Bu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2024-cü il üzrə məlumatında qeyd edilib. 2023-cü ildə isə bu rəqəm 1742 olub, yəni 2024-cü ildə 463 nəfər azalıb.

463 nəfər azalmaya sevindik. Lakin 1279 uşaq axı az deyil. Bu, 1279 nəfər 18 yaşınadək qız, onunla qanunsuz şəkildə evlənmiş bir o qədər oğlan, oğlan və qız tərəfin hər ikisinin valideynlərini nəzərə alsaq, ailənin qurulmasına razılıq verən beş mindən artıq insanın düşüncə tərzidir. Bu qədər insanın qanunsuz "ittifaqa", 18 yaşı hələ tamam olmamış qızların dünyaya uşaq gətirib ana olmasına razılığıdır.

Bəs bu vəziyyət hansı bölgələrimizdə daha çox baş verir? Hansı bölgələrdə insanlar daha çox düşünməli, övladını kölə kimi görməkdən əl çəkməlidir? Dövlətin qanunlarına və övladının hüquqlarına sayğı ilə yanaşmalıdır?

Mərkəzi Aran iqtisadi rayonu bu siyahıya başçılıq edir. Yəni 18 yaşadək evləndirilən qızlar və 18 yaşınadək ana olan qadınlar ən çox bu bölgədədir- Yevlax, Kürdəmir və Ucar rayonlarında. Bu iqtisadi rayonun əhalisi məsələnin ciddiyyətinə nəzər salmalıdır. Bu bölgədə yaşayan insanlar həmin rayon sakinlərini ictimai qınaq obyektinə çevirməlidir ki, belə hallar tədricən aradan qaldırılsın.

Qarabağ iqtisadi rayonu siyahıda ikinci, Qazax-Tovuz iqtisadi rayonu üçüncü, Lənkəran-Astara iqtisadi rayonu dördüncü, Mil-Muğan iqtisadi rayonu isə erkən doğumla ilk beşliyi tamamlayır. Həqiqətən ictimai qınaq gərəkdir...

1279 uşaq 18 yaşa çatmayan bir o qədər qızın qeyri-qanuni nikahı, 1279 valideynin, 2-yə vuranda isə 2558 nəfərin günahıdır. Bu, hələ rəsmi statistikadır, qeydiyyata alınmamış onlarla erkən "nikah" var ki, ölkəmizdə, onlar bu rəqəmi daha da artıra bilər.

Deməli, 1279 qız öz ailəsi tərəfindən istismar olunub, onların hüquqları valideynləri tərəfindən əlindən alınıb. Və yaxud da hüquqlarının nədən ibarət olduğu bu qızlara tələqin olunmayıb. Beləliklə də onlar erkən nikaha daxil olublar və bu da söz yox ki, onların gələcək psixoloji vəziyyəti üçün zəmin yaradıb. Axı onlar həyatın, ailənin, qayınana-qayınata, ər qayğısının, uşaq doğmağın, onu böyütməyin nə olduğunu yetəri qədər anlamır.

1279 uşağın 18 yaşınadək analar tərəfindən doğulması o deməkdir ki, 1279 uşaq ya ölümlə və ya baxımsızlıqla qarşı-qarşıya qalıb. Çünki onları dünyaya gətirən ananın hələ özünün qayğıya ehtiyacı var.

Maraqlıdır, qızlarını erkən ərə verən valideynlər heç özlərinə sual verirmi ki, mənim qızım qadın, həyat yoldaşı, ana olmağa hazırdırmı? Bəlkə bu sualı evlənməyə vadar etdikləri qızlara verələr? Ümidvaram ki, bu sualı versələr, cavabında çarəsiz baxan gözlərlə qarşılaşarlar.

Ermənilər çətir axtarışında

Müxalifət İrəvanı "İttifaq Dövlətinə" üzv olmağa çağırır

Ermənistanda yenə də "İttifaq dövləti"nə inteqrasiyadan danışırlar. Mövzu ilk dəfə ikinci Qarabağ müharibəsindən sonra populyarlıq qazanmışdı, çünki bir çox ermənilər öz respublikalarına inamını itirərək başqa təhlükəsizlik mənbələri axtarmağa başlayıblar. Daha sonra iqtidar və müxalifət Ermənistanın Avropa İttifaqı və Türkiyə ilə yaxınlaşması, yoxsa Rusiya ilə münasibətləri gücləndirməsi ilə bağlı mübahisələrdə bundan istifadə etməyə başlayıblar. Ermənistanın ikinci prezidenti Robert Köçəryan bir neçə KİV-ə müsahibəsində bu debata daha bir töhfə vermək qərarına gəlib.

Onun sözlərinə görə, Rusiya və Belarus rəhbərləri ona heç vaxt Ermənistanın İttifaq dövlətinə qoşulmasını təklif etməyiblər.

"Heç vaxt Rusiya Federasiyasının birinci prezidenti Yeltsinlə, nə Putinlə, nə də Lukaşenko ilə belə söhbətlər olmayıb. Daha bir böyük sual odur: biz bu məsələni qaldırsaydıq, bizim qarşımıza ilkin şərtlər qoyardılar, ya yox. Deyəsən, onlar Ermənistanın bir yerdə olmasını gözləyirlər... Nəyə görə, Ermənistan hakimiyyəti son iki ayda davamlı olaraq bu tezisdən və mənim haqqımda danışırlar, bu, zarafat kimi görünür - onlar digər qəhrəmanın adını bilmirlər", - ikinci prezident qeyd edib.

Eyni zamanda, Köçəryan vurğulayıb ki, hakimiyyət Birlik dövləti mövzusundan öz məqsədləri üçün, o cümlədən Rusiya ilə tərəfdaşlığın cəlbediciliyini azaltmaq üçün istifadə edir. Onun nöqteyi-nəzərindən bu, yanlış yoldur; bunun əvəzinə, əksinə, Moskva ilə münasibətləri gücləndirmək lazımdır. "Avropanın Ermənistanda istənilən təhlükəsizlik məsələsini həll edə biləcəyini düşünmək sadəlövhlükdür... İndi bu regionda aktor ola biləcək üç dövlət var: Rusiya, Türkiyə və İran. Bu ölkələrdən hansı bizə daha yaxındır, hansı ölkə ilə iqtisadi əlaqələrimiz daha güclüdür, hansı ölkə ilə tarix bağlıyıq, hansı ölkə daha güclüdür, iqtisadi və hərbi potensialı daha yüksəkdir? Hansı ölkə bizə daha yaxındır? Mədəni kodeks baxımından kimlər cavab vermir? Kimin cavabı yoxdur?", deyib.

Yada salaq ki, 2022-ci ilin fevralında Belarus rəhbəri Aleksandr Lukaşenko İttifaq dövlətinin genişlənməsindən danışarkən bildirmişdi ki, digər keçmiş sovet respublikaları, o cümlədən "gedəcək yeri olmayan" Ermənistan da Rusiya və Belarusa qoşula bilər. "Səncə, bunlar kimməsə lazımdır?" - vurğulayıb. Bunun ardınca Ermənistanın baş naziri Nikol Paşinyanın ailəsinə məxsus "Haykakan Jamanak" qəzeti məqalə dərc edib ki, Moskva İrəvandan Kiyevdən istədiyi kimi eyni şeyi - Rusiya və Belarusun İttifaq Dövlətinə qoşulmaq istəyir. Bunu yalnız Ukraynanı rus qoşunları məcbur edir, Ermənistanla isə Azərbaycan qoşunları məşğul olacaq.

2023-cü ilin yanvarında Ermənistanın baş naziri Nikol Paşinyan İrəvana İttifaq dövlətinə qoşulmaq üçün rəsmi təklif almadığını bəyan edib, lakin vəziyyətin göründüyündən də mürəkkəb olduğunu qeyd edib. Onun sözləri ilə desək, "bəzən sualların mətninə deyil, sətiraltı mətninə dərindən baxmaq lazımdır". Eyni zamanda, Paşinyan İrəvanı İttifaq dövlətinə inteqrasiya etmək məqsədi ilə ona təzyiqlərin edilə biləcəyi versiyasını da təkzib etməyib.

Bu arada Ermənistanın Rusiya və Belarusun ittifaq dövlətinə qoşulması ideyası Paşinyanın bəzi əleyhdarları arasında populyarlıq qazanıb. Xüsusilə, apreldə seçilən Gümrü meri Vardan Qukasyan jurnalistlərə bildirib ki, bu, respublikanın təhlükəsizliyini möhkəmləndirmək və onun çiçəklənməsini təmin etmək üçün əla fürsətdir. "Bu, maraqlı bir vəziyyət yaradır: kimsə Rusiya ilə İttifaq dövlətindən danışanda, onları respublikanın suverenliyinə qəsd etməkdə ittiham edirlər. Amma Aİ-yə daxil olmaqdan söhbət gedirsə, belə ittihamlar yaranmır. Bizim təşəbbüsümüzü tənqid edənlərin sadəcə olaraq məlumatı yoxdur. İttifaq dövlətinin Nizamnaməsində açıq-aydın göstərilir ki, hər bir iştirakçı Belarus bu ölkənin öz canlı nümunəsidir... Erməni xalqı həmişə Rusiya ilə sıx qardaşlıq əlaqələrində çiçəklənib, Sovet Ermənistanının qızıl dövrü buna ən parlaq sübutdur", - deyə Qukasyan bildirib.

Politoloq Tiqran Köçəryan bildirib ki, Ermənistan cəmiyyətində İttifaq dövlətinə inteqrasiyaya müxtəlif baxışlar var. "Hakimiyyət bu prosesi Sovet İttifaqına qayıdış kimi təqdim edir. Bu baxımdan Ermənistanın müstəqilliyini itirəcəyini, erməni əsgərlərinin Donbasa gedəcəyini deyirlər. Eyni zamanda, bir çoxları İttifaq dövlətinə inteqrasiyanı Rusiya və Belarus tandeminə qoşulmaq kimi təsəvvür edirlər ki, bu da İrəvanın Avropa İttifaqı daxilində olduğundan daha çox suverenliyini qoruyub saxlayacaq", - ekspert qeyd edib.

Köçəryan onu da izah edib ki, İttifaq dövləti mövzusunu ilk olaraq müxalifət işləyib hazırlayıb. Xüsusilə Ermənistanın ikinci prezidenti bu prosesin əsas ideoloqlarından biri hesab olunur, baxmayaraq ki, özü bu roldan imtina edir. "Nə olursa olsun, erməni əhalisinin müəyyən hissəsinin SSRİ-yə böyük nostaljisi var. Üstəlik, Lukaşenko Azərbaycanla sıx əməkdaşlığa başlayana qədər ermənilər ona rəğbət bəsləyirdilər. Amma hazırda İttifaq dövlətinə qoşulmaq məsələsi gündəmdə deyil. Türkiyə ilə yaxınlaşma kursunun əleyhdarları hakimiyyətə gəlsələr, Rusiya ilə münasibətləri heç olmasa əvvəlki səviyyədə bərpa etməyə başlayarlar. 2018-ci ilin inqilabı. Bu mənada ikinci prezident düzgün şəkildə qeyd etdi ki, İrəvan ona kimin kömək edə biləcəyinə qərar verməlidir: "Yalnız Rusiya Ermənistanın təhlükəsizliyinə təminat verə bilər", - deyə Köçəryan yekunlaşdırıb.

V.VƏLİYEV

ARXİV

Kitabxanalara və teatrlara marağın azalması hansı sosial amillərlə bağlıdır?

Elm və texnologiyanın inkişafı insanı günbəgün təbiilikdən uzaqlaşdırır. Qabaqlar hamımızın görüş yerimiz, bilgi və elm ocağı olan kitabxanalar yavaş-yavaş virtual alternativləri ilə əvəzlənir. 5-10 il öncə kitabxana salonlarında, teatrlarda "iynə atsan yerə düşməzdi", amma indi bu məkanlara gedənlər barmaqla sayılacaq qədər azdır.

Kitab mağazalarını restoranların və mağazaların əvəz etdiyini, kitabxanalardakı kitab rəflərininsə kitab həsrəti ilə toz tutduğunu bir fakt kimi müşahidə edərək buna səbəb olan amilləri nəzərdən keçirdik. SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib.

Şəhər sakini Məleykə Məcidzadə: "İndiki zamanda telefonlarda məlumatlar çoxaldığına görə kitabxanalara gedənlərin sayı azalıb. Deyirlər ki, telefon əlimizin altındadır

deyə, məlumatları buradan toplayaq. Əslində bu, yanlış fikirdir. Kitabxanaya getdikcə, kitabı canlı oxuduqca insanın zehni daha da güclənir. Telefon insanın zehnini inkişafdan saxlayır. Telefondan az istifadə etsək, daha yaxşı olar. Mən uşaqlarımı hər dəfə kukla teatrına aparıram. Bir dəfə teatrda az, bir dəfə də çox adam olur. Tamaşa maraqlı olanda adam daha çox olur. O zaman sevinirəm ki, hamı gəlir, baxır. Getmək lazımdır, özümüzü inkişaf etdirməliyik ki, gənc nəsil də bizə baxıb formalaşsın".

Şəhər sakini Gülnar Abdullayeva: "Səbəb internetin, sosial şəbəkələrin olması ola bilər. Amma gedənlər də var. Biz də kitabxa-

naya, teatra gedirik. İnsanlar kitabxanaya getməyi vaxt itkisi hesab edirlər. Amma kitabxanaya, teatra getməkdən də həzz almaq lazımdır".

Şəhər sakini Cəmil Abdullayev: "Marağın azalmasının əsas səbəbi internetin yaranması ola bilər. İnternet varsa, deməli, hər

şey var. Hamı telefondan istifadə edir. Kitabxanaya getmək insanın nitqini, danışıq qabiliyyətini artırır. Amma bütün informasiya internetdə var, hamı da ondan istifadə edir. İnsanlar vaxt itirmədən məlumat almaq istəyirlər".

Şəhər sakini Zəminə Dünyamalıyeva: "Bunun bir çox səbəbi var. Əslində, ən çox texnologiya, telefonla əlaqələndirirlər. Ancaq mənə elə gəlir ki, bunun əsas kökü başqadır. Dövrümüz elədir ki, inkişafdan hər bir insan

səmərəli istifadə etməlidir. Bizim dövlətimiz müstəqilliyə qan-qada ilə gəlib. İnsanların həyat tərzi birdən-birə dəyişdi. Elə oldu ki, həm o dövrün demokratiyaya olan addımı birdən dəyişdi. İnsanlara yad olan qurum idi. Azərbaycan üçün Dağlıq Qarabağ məsələsi həmin dövrə düşdüyü üçün dəyişimin ikincisi də burada oldu. İnsanların pərakəndə olması, 30 il bir milyon yarıma qədər insan ancaq həyatda qalmağı düşündü. Mədəniyyət, kitabxana o vaxt inkişaf edir ki, orada stabillik var. Bizim taleyimizdə elə gündəm yarandı ki, bu, bizdən asılı olmayan səbəblərdən yarandı. Artıq vərdiş halına keçdi. Sonra da texnologiyanın inkişafı insanların yeniliyə can atmasına səbəb oldu. Biz bu boşluğu birbaşa texnologiya ilə doldurduq. Bu gün ən çox bu səbəblərin acısını yaşayırıq. İnsanları qınasaq da, bizdən asılı olmayan səbəblərdə də çox oldu".

Şəhər sakini Məhbubə Qafarova: "İndiki zamanda ən çox internetə üstünlük verilir.

Hər şey də internet üzərindən olduğu üçün artıq insanlarda səbr qalmayıb. Ona görə də, teatrlara, kitabxanalara getmək azalıb. Teatrı telefonda filmlər əvəzləyib. Telefondan kitab da oxuyurlar. Səbəblər bunlar ola bilər".

Şəhər sakini Rəvanə Həsənova: "Kitabxanalara, teatrlara marağın azalmasının səbəbi biz - valideynlərik. Mən iki qız övlad böyüdürəm. O qədər sosiallaşma baş verib ki, telefon, kompüter əsridir, əgər mən kitab alıb uşağın qarşısında oxumuramsa, uşaq necə nümunə götürsün. Uşaq gördüyünü götürür, ana-atanın güzgüsüdür. Mən başqa səbəb görmürəm. Kitabxanalar bizim zamanda da var idi. Əksinə, indi daha çoxdur. Övladlarımız üçün hər cür şərait var. Ana və ata nə edirsə, övlad da onu edir. Ona görə də, kitablara, bədii əsərlərə maraq daha azdır".

Söylü Ağazadə

Elektromobil erası başlamamış bitdi, yoxsa...?

Elektriklə işləyən avtomobillərin perspektivi varmı, müsbət və mənfi cəhətləri hansılardır?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb

Beynəlxalq Energetika Agentliyi dünyada elektrikli avtomobil bazarının hazırkı və perpspektiv vəziyyətinə dair hesabata açıqlayıb. Hesabata görə, hazırda Çində satılan bütün elektromobillərin 70%-nə qədərinin qiyməti hətta dövlətin subsidiya və alışı üçün dəstək paketi olmadan ənənəvi avtomobillərdən daha ucuzdur. Almaniyada isə əksinə, ənənəvi avtomobillər 20%, ABŞ-da 30% daha ucuzdur. Lakin Agentlik hesab edir ki, yaxın dövrdə batereyaların ucuzlaşması bu fərqi elektromobillərin xeyrinə dəyişə biləcək.

Hesabata görə, hazırda dünyada satılan avtomobillərin 25%-i elektrikli analoqlarının payına düşür. 2030-cu ildə bu göstərici ən azı 40% olacaq. Bəzi hesablamalara görə, neftin qiyməti hətta 40 dollara ensə belə, elektromobillərin cari istismarı ənənəvi avtomobillərlə müqayisədə 2 dəfə ucuz olacaq.

Ekspertlər hesab edirlər ki, elektromilləşmənin hazırkı inanılmaz yayılma sürətinin qlobal enerji xəritəsini də qısa zamanda çox sürətlə dəyişəcəyinin şahidi olacağıq. Son vaxtlar ölkəmizdə də elektromobillərə maraq artıb. Düzdür, hələlik, bizdə hibrid maşınlara üstünlük verirlər, lakin elektromobillərə də rast gəlmək olur. Elektromobillərin mənfi və müsbət cəhətləri var ki, bu yazıda onları göstərməyə çalışacağıq.

Elektromobillərin müsbət cəhətləri

Elektromobillər daxili yanma mühərriki olmayan maşınlardır. Daxili yanma mühəriikkərinin istehsalı və onlara xidmət baha başa gəlir. Bu mühərriklər xeyli yanacaq işlədir və elektromobildən azı 3 dəfə daha çox yanacaq xərci aparır.

Lakin əsas fərq yanacaq xərclərində də deyil, daxili yanma mühərrikli maşınlarda dövrü olaraq dəyişdirilməsi vacib olan xeyli sayda detallar, filtrlər, həmçinin sistemin təmizlənmə işləri var- alışdırma şamları, motor yağı, yağ filteri, antrifris, radiator, starter, mikrofilter, sürətlər qutusu və onun yağı, pompa, natyajitel roliki, mühərrik kəməri, mühərrikin aşınan hissələri, yanacaq çəni, yanacaq nasosu, yanacaq filteri, yanacağı ölçən dedektor, səsboğucu, katalizator və qazların xaric edilməsi sistemi, müştük,farsunkaların yuyulması, zaslonkanın təmizlənməsi və s. çox sayda elementlər var ki, mütamadi olaraq dəyişdirilməsi və ya təmizlənməlidir. Bunlar da xeyli xərc aparır. Lakin elektromobillərdə daxili yanma mühərriki olmadığına görə bunların heç birinə ehtiyac yoxdur və bu xərclərdən azad olursan.

Bundan əlavə, sürüş rahatlığı daha yüksəkdir- elektromobillər yerindən daha tez sürət yığır, tam səssiz işləyir, idarəsi daha rahatdır, elektronik göstəricilər və funksiyalar daha zəngindir.

Ekoloji baxımdan isə məsələ aydındır- bu maşınlar istifadə müddətində təbiətə heç bir zərər vurmur (lakin onların batareyalarının istehsalı və utlizasiya zamanı təbiətə zərər dəyir- bununla bağlı növbəti bölmədə- E.B), daxili yanma mühərrikli maşınlar isə havaya 3-4 min zərərli maddə buraxır ki, bu da təbiətə ağır zərər vurur. Üstəlik, onların işlətdiyi yanacağın, yağların istehsalı da ekologiyaya böyük zərər vurur. Elektromobillər eyni ölçülü DYM maşınlara nisbətən daha geniş istifadə yerinə malik olur. Çünki bu maşınlarda mühərrik, yanacaq çəni və çox sayda digər detallara ehtiyac olmur.

Elektromobillərin mənfi cəhətləri

Qiymətdən başlayaq. Hazırda avtomobil bazarında tam elektrikli avtomobillərin qiyməti DYM maşınlarla müqayisədə təxminən 2 dəfə bahadır. Bunun əsas səbəbi, elektromobillərin litium-ion batareyası ilə təchiz edilməsidir ki, onun dəyəri avtomobilin özünün qiymətinin yarısı qədər ola bilər.

Müasir elektromobillər litium-ion batareyaları sayəsində bir dəfə doldurulmaqla 500 km-dən çox yol qət edə bilir. Amma bu amilin mənfi tərəfi də var - belə avtomobillər böyük tutumlu akkumulyatorlardan istifadə edirlər. Nəticədə, AC (dəyişən cərəyan) stansiyalarından enerji doldurmaq çox saatlar çəkə bilər. Evdə enerji doldurmağa çalışırsınızsa, hətta bütün gecəni doldurduqdan sonra belə tam batareya doldurulmasını görə bilməyəcəksiniz. Evdə 220 voltda ən azı 8 saat, xüsusi doldurma məntəqələrində isə minimum 40 dəqiqə gözləməlisiniz.

Elektrikli avtomobilin başqa bir real çatışmazlığı qışda səmərəliliyin azalmasıdır. Bu, batareyaların içərisində kimyəvi reaksiyaların yavaşlaması ilə əlaqədardır. Nəticədə elektromobilin diapazonu azalır. Tədqiqatlar göstərir ki, 5 C°-də batareya tutumu 20%, -5 C°-də 35-40%, -12 C°-də isə 50% azalır. İzolyasiya edilmiş isti qarajınız varsa, bu yaxşı bir seçimdir. Digər şəraitlərdə isə problemdir.

Yayda kondisioner, qışda kabinənin isidilməsi akkumulyatorla işləyir. Onları yandırsanız, güc ehtiyatını daha 20-30% azaldacaqsınız. Keçən il Qazaxstanın səhradan keçən magsitral yolunda qar, buz və çovğun olanda hərəkət dayanmışdı, şaxtaya düşmüş yanacaqla işləyən maşınlar istilik sistemini qoşub kömək gözlədilər, elektromobildə olanlar isə istilik sistemi qoşduqlarında qısa müddətdə enerji bitdi və adamlar soyuqdan donub öldü.

Eləcə də, yayın isti günlərində siz 500 km-lik məsafədə və 5 saatlıq bir yola çıxsanız məcburən kondisioner davamlı işləməlidir və nəticədə tezliklə enerji ehtiyatı bitəcək və siz yolda qala bilərsiniz.

Nəqliyyat vasitələrinin etibarlılığını tədqiq edən ekspertlər müəyyən ediblər ki, elektriklə işləyən avtomobillər daxili yanma mühərriki olan avtomobillərlə müqayisədə 79% daha çox xarab olurlar. Mütəxəssislər hesab edirlər ki, bu avtomobillərdə yaranan problemlərin əksəriyyətinin səbəbi hələ kifayət qədər sınaqdan keçirilməmiş yeni texnologiyaların istifadəsidir.

Bu maşınlarda uzaq məsafələrə səyahət əlverişsizdir. Əksər hallarda elektriklə işləyən avtomobillər evdə öz çıxışından doldurulmalıdır. Doldurma məntəqələrinin sayı çox azdır. Əgər uzun çöl yolunda batareyanız azalsa və ya ucqar kənddə, təbiət qoynunda qalası olsanız, enerji doldura bilməyəcəksiniz. Bundan başqa hər hansı bir qəza və digər səbəbdən ərazidə elektrik kəsilərsə siz avtomobilsiz qalırsınız, yanacaqlı maşınlarda isə belə problem yoxdur. Onlar hətta yanacaqları bitsə belə yoldan keçən maşınlardan 1-2 litr yanacaq alıb hansısa YDM- yetişə bilərlər. Elektromobildə isə bu mümkün deyil.

Vaxt keçdikcə, batareyalar tutumunu tədricən itirir, ildə orta hesabla 5%. Yüklənmələr arasında sürmə məsafəsi azalır, bu, müəyyən bir sayda enerji doldurma dövründən sonra böyük bir narahatlıqdır. Enerji yükləmə cihazı nə qədər güclü olarsa, batareya bir o qədər tez köhnəlir. İki-üç ildən sonra bu sual qarşısında qalırsınız: bu maşınla nə etmək lazımdır???

Batareyaların dəyişdirilməsi təxminən 5000-15000 manata başa gələcək. 1200-2000 doldurma dövründən sonra akkumulyator enerji saxlamayacaq.

Bu maşınların daha bir nöqsanı ondan ibarətdir ki, maşında əyləşən hər sərnişinə və baqaja qoyulan hər yükə görə enerji sərfiyyatı çox artır. Məsələn, siz 4 nəfər və 4 çanta ilə səfərə çıxsanız tam doldurma ilə 500 km əvəzinə 300 km yol qət edə biləcəksiniz.

Bir çox elektrikli avtomobil sahibləri onları birbaşa evdə doldururlar, lakin hər kəs bunu edə bilməz, çünki əksər insanlar çoxmənzilli binalarda yaşayır. Adətən aşağı mərtəbələrdə yaşayanlar üçün heç bir problem yoxdur. Uzatma kabeli ilə onu birbaşa evinizə qoşa bilərsiniz. Ancaq mənzil, məsələn, 4 mərtəbədən yuxarıdırsa, vəziyyət daha da mürəkkəbləşir.

Elektromobillərin sağlamlığa zərəri daha çoxdur. Elmi araşdırmalara görə, elektromaqnit sahəsi əsasən elektrik mühərriki və mühərriki idarə edən güc elektronikası tərəfindən yaradılır. Bu, avtomobildəki sərnişinlərə mənfi təsir göstərir. Bəzi ölkələrdə, məsələn Yaponiyada bir sıra elektromobil sahibləri sağlamlığına dəyən ciddi zərəri sübut edərək təzminat alıb və bu maşınlardan imtina ediblər. Yaponiyada artıq elektromobil erası başlamamış başa çatmışdır və yaponlar hidrogenlə işləyəcək maşınlar üzərində çalışırlar.

Elektromobillərin perspektivi varmı?

Yaponiya 2017-ci ilin dekabrında hidrogen iqtisadiyyatının qurulması üçün strategiyanın qəbul edilməsini bəyan etdi, sonrakı illərdə Almaniya, Böyük Britaniya, Cənubi Koreya, Avstraliya, Rusiya hidrogen strategiyasını qəbul etdi. Bu məqsədlə Rusiyada yaradılmış konsorsiumun tərkibinə 16 elmi institut və 20 şirkət daxil edilib. Yaşıl hidrogen gələcəyin əsas enerji mənbəyi hesab edirlir və bu avtomobillərə də aid olacaq.

Hidrogen ilə işləyəcək maşınlarda ekoloji zərər yoxdur, suyun elektrolizi ilə tərkibindəki hidrogen yandırılır və havaya oksigen atılır. Hidrogen isə çox güclü enerji mənbəyidir. Məsələn, 1 litr sudakı hidrogen enerjiyə çevrilsə azı 1000 km məsafə qət etmək olar. Burada əsas problem təhlükəsizlik məsələsidir ki, o həll edilsə, dünyanın gələcəyi su ilə işləyən maşınların olacaq. Güclü enerji mənbələri həmişə təhükəli olur, məsələn 70-ci illərdə SSRİ-də atom enerjisi ilə işləyən avtomobil yaradılmışdı, lakin təhlükə riski yüksək olduğuna görə imtina edildi.

İndi isə gələk ekoloji məsələyə. Faydaları bölməsində qeyd etdik ki, elektromobil istifadə edilərkən atmosferə zərrəli tullantılar vermir və ekoloji cəhətdən daha sağlamdır. Lakin burada başqa məsələ var- batareyaların istehsalı və utlizasiyası təbiətə ciddi zərər vurur. Bundan əlavə istifadə olunan enerjinin istehsalı zamanı da təbiətə zərər dəyir. Yəni, təbiətə dost olan zərərsiz texnologiya deyil.

Bundan başqa litium yataqlarının məhdudluğu və bu sürətlə istifadə edilərsə tezliklə tükənəcəyi təhlükəsi var. Bu məsələ elektromobillərin perspektivini şübhə altına alır.

Bu səbəbdən, hələlik ən yaxşı variant hidrid avtomobillərdir ki, hazırda ölkəmizdə və dünyada onların satışı artır. Elektromobillərlə bağlı vəziyyət isə hələ də dumanlıdır və riskləri çoxdur. Buna baxmayaraq, bəzi sahələrdə onlardan istifadə sərfəlidir. Şəhər içi qısa səyahətlər, fabrik, zavod içi yükdaşımalar və sait yerlərdə effektiv istifadə edilə bilər. Bir şərtlə ki, qiyməti baha olmasın.

Elçin Bayramlı

ARXİV NÜSXƏSİDİR

SON SƏHİFƏ
SƏS
23 may
2025-ci il

İstedadlı müəllimlər tədrisdən uzaqlaşır - SƏBƏB?

“Müəllimlik peşəsi hər bir cəmiyyətin gələcəyini formalaşdıran əsas sütunlardan biridir. Ancaq son illər bu peşəyə maraq azalır. Parlaq və istedadlı müəllimlər tədris sahəsindən uzaqlaşır. Bu da istər-istəməz ciddi narahatlıq doğurur”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Rizvan Fikrətoğlu deyib. Onun sözlərinə görə, parlaq müəllimlərin niyə azalması sual doğurur: ”Təbii ki, buraya aşağı maaş, sosial təminatın aşağı olması, müəllim nüfuzunun zəifləməsi, müəllimlərin əlavə yüklənməsi, kariyera artımının məhdudluğu və digər məsələləri göstərmək olar. Ən parlaq tələblər maddi baxımdan daha cazibədar sahələrə gedirlər. İKT, hüquq, biznes, səhiyyə kimi sahələrə yönəlirlər. Müəllim peşəsinin əməkhaqqının aşağı olması, gənc müəllimlər üçün həmin əməkhaqqının həyat standartlarına uyğun gəlməməsi, istər-istəməz onları başqa sahəyə yönəldir.

Əvvəllər müəllim cəmiyyətdə böyük hörmətə malik idi. Bu gün isə istər valideyn, istər ictimaiyyət, istər təhsili idarə edənlər tərəfindən müəllim tənqid edilir, müəllimin qərarlarını sual altına almaq olur, müəllimin üstünə çox gedilir. Bu isə müəllimlik peşəsinin cazibəsini azaldır. Müəllimlərin əsas vəzifəsi dərs keçmək, tədrisdir. Amma onlar çox vaxt hesabatlar, texniki sənədlər, idarəçilik tapşırıqlarını yerinə yetirirlər. Bu da istər-istəməz tədrisin keyfiyyətini azaldır. Müəllimlik peşəkar yüksəliş imkanlarına məhduddur. Ən yaxşı halda müəllim yenə də müəllimdir. Ən yaxşı müəllim də uzun illər eyni maaşda, eyni fənni tədris edə bilir. Bu da müəllimləri ruhdan salır.

Müəllimlik peşəsinə marağı artırmaq üçün nə etmək lazımdır? Təbii ki, əməkhaqqı artırılmalıdır. Müəllim imici yüksəldilməlidir. Müəllimə sərbəst işləmək imkanı verilməlidir. Müəllimlər innovativ təlim və təcrübə proqramlarına göndərilməlidirlər. Məktəblərin uğurları ictimailəşməlidir. Müəllimlərə layiqli əməkhaqqı verilməsi, bəzi güzəştlərin daha da artırılması, təqaüd imkanlarının yaradılması çox gözəl olardı. Belə olan halda peşəkar müəllimlik cəmiyyətin təhlükəsizlik zonası kimi tanınacaq. Televiziya, sosial media, mətbuatda müəllim obrazı pozitiv və nüfuzlu şəkildə təqdim edilməlidir. Müəllimlərə hörmət yalnız məktəblə bağlı deyil. Həm də ictimai diskusda da müəllimə hörmət təbliğ olunmalıdır”.

”Müəllimlərə daha çox yaradıcılıq azadlığı, öz metodları ilə işləmək imkanı verilməlidir. Müəllimlər hesabat yazan deyil, tələbə formalaşdıran şəxs kimi fəaliyyət göstərməlidir. İxtisasartırma kursları, beynəlxalq təcrübə proqramları, təhsil səfərləri, seminarlar vasitəsilə müəllimlərin əlaqələri genişləndirilməli, daha da inkişaf etdirilməsinə sövq edilməlidir. Müəllim uğurları necə ictimailəşə bilər? Düzdür, bizdə ”Əməkdar müəllim” var. ”İlin müəllimi” kimi layihələrlə tanıdılmalı, nümunəyə çevrilməlidir. Əgər biz gələcəyin cəmiyyətini formalaşdırmaq istəyiriksə, müəllimi yalnız məktəbin deyil, millətin dayağı kimi görməliyik. Parlaq müəllimlər yalnız parlaq şagirdlər yetişdirmir. Həmçinin onlar bizim parlaq gələcəyimizi yaradırlar. Bu baxımdan müəllim əməyi, nüfuzu yüksək olmalıdır. Həm dövlət, həm də cəmiyyət tərəfindən müəllimə qayğı ilə yanaşılmalıdır. Bəzi ali təhsil müəssisələrində yüksək balla qəbul olan abituriyentlərə təqaüd imkanları təqdim olunmalıdır ki, onlar məqsədli şəkildə bu ixtisası seçsinlər” - deyə o, əlavə edib.

Söylü Ağazadə

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Naxçıvanda 7 nəfər dönərdən zəhərlənib

Naxçıvanda kütləvi zəhərlənmə olub. SİA xəbər verir ki, mayın 21-də Naxçıvan Muxtar Respublikasının Yoluxucu Xəstəliklər Mərkəzinə qida zəhərlənməsi şübhəsi ilə 7 nəfər yerləşdirilib. Mərkəzin həkimi Nəzmin Allahverdiyeva bildirib ki, onlar ürəkbulanma, qusma, ishal, qarın ağrısı və ümumi halsızlıq kimi şikayətlərlə daxil olublar, vəziyyətləri orta-ağır qiymətləndirilib. Tibbi yardımdan sonra həmin şəxslər evə buraxılıb.

Araşdırmalar zamanı məlum olub ki, zəhərlənməyə dönər və şaurma tipli qidalar səbəb olub. Naxçıvan Qida Təhlükəsizliyi Agentliyindən bildirilib ki, qida zəhərlənməsi halları Naxçıvan şəhəri, Heydər Əliyev prospektində yerləşən iaşə obyektində qeydə alınıb. Agentliyin əməkdaşları tərəfindən obyektdə müvafiq araşdırmalar aparılıb, şübhəli məhsullardan nümunələr götürülərək laboratoriyaya təqdim olunub. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

Qurban bayramında ardıcıl 4 gün iş olmayacaq

Bu il Qurban bayramı ilə əlaqədar ardıcıl 4 gün qeyri-iş günü olacaq. Nazirlər Kabinetinin qərarına əsasən, iyunun 6-sı və 7-də ölkədə Qurban bayramı qeyd ediləcək. Belə ki, iyunun 7-si şənbə gününə təsadüf etdiyindən Əmək Məcəlləsinə uyğun olaraq iyunun 9-u qeyri-iş günü olacaq. Həmçinin, iyunun 8-i bazar gününə təsadüf etdiyindən ardıcıl 6, 7, 8 və 9 iyun tarixləri qeyri-iş günləri olacaq.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000